www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 avqust 2015-ci il Bazar ertəsi № 185 (6213) Qiymәti 40 qəpik

**Xəbər**

## Azərbaycanın xalq artistləri arasında yumruq davası

yazısı səh.15-də

**Gündəm**

### Yenidən dirçələn "Hafka" Ziya Məmmədova meydan oxudu



Götürüb qaytarmadığı kreditə görə həbs təhlükəsi ilə üzləşmiş Hafiz Məmmədov Azərbaycana qayıdıb; onun birdən-birə dirçəlməsi suallar doğurur...

yazısı səh.4-də

### "Ağ Blok"un təqdimatı oldu - "Gənclik meydanlara qayıdır"

yazısı səh.3-də

### Bakının 5 rayonunun su təhlükəsizliyinə təhdid

yazısı səh.14-də

### Manat üçün kritik həftə başladı

yazısı səh.3-də

### Xaləddin İsgəndərovun təmtəraqlı təpələri sökülür

yazısı səh.6-da

### Rusiyalı ekspert: "Qarabağ müharibəsi gələn il başlayacaq"

yazısı səh.11-də

### Müxalifət partiyaları üzvlərinin statistikasını aparırmı?

yazısı səh.7-də

### İnterpol Azərbaycan düşməninin axtarışını dayandırdı

yazısı səh.11-də

### Dərsə gedən bir uşağın xərcləri...

Valideynlər bahalıqdan gileylənir, satıcılar isə hələ yeni qiymət artımının olacağını deyirlər

yazısı səh.12-də

### "Rusiya və Qərb Azərbaycandakı parlament seçkilərinə hazırlaşır" - politoloqdan şok açıqlama

yazısı səh.9-da

### Dərələyəzli bukinistin acı taleyi "Yeni Müsavat"da

yazısı səh.13-də

### Almaniyaya qaçan türk prokuror bu ölkədən siyasi sığınacaq istədi

yazısı səh.10-da

## "Sürünən böhran" sərhədimizə yaxınlaşır

# RUSİYAYA QARŞI İQTİSADİ MÜHARİBƏDƏ "AZƏRBAYCAN CƏBHƏSİ" - TƏHLÜKƏ

Kremlə və onun potensial müttəfiqlərinə qarşı Qərbin bütün cəbhə boyu yeni hücum taktikasının pərdəarxası; "dava edən fillərin" ayağının altında "ot olmamaq" şansımız hələ ki qalır, əgər...

yazısı səh.8-də




# Mingəçevir olaylarının yeni təfərrüatları - detallar

Bəhruz Hacıyev adlı gəncin polis şöbəsində ölümü kütləvi etirazlar doğurdu; saxlanılanlar arasında polis əməkdaşı da var; polis rəisinə şiddətli töhmət verildi; mərhumun atası: "Oğlumu elektroşokla öldürüblər..."; prezident hadisəni şəxsi nəzarətinə götürdü

yazısı səh.5-də



Rahib Haciyev

### Keçmiş siyasi məhbus AXCP-dən istefa verdi

yazısı səh.7-də



### Xədicə İsmayılın həbsinə səbəb olan gənc üzə çıxdı

yazısı səh.3-də



Elmira Axundova

### Deputat oğlu Gömrük Komitəsindəki işindən uzaqlaşdırıldı

yazısı səh.4-də

**24 avqust 2015**



## "Nəzərdə tutduğunuz gəncləri özümlə yarışa çağırıram"

**Yaqub Mahmudov:** "Mən məsləhət bilinəcəyi, etimad göstəriləcəyi halda seçkilərə qatılacağam"

**"Seçkidə iştirak edib-etməmək məsələsi məndən asılı deyil. Etimad göstərilərsə, seçkidə iştirak edəcəyəm. Amma mən bir tarixçi babayam, öz peşəmə vurğunam və peşəmi davam etdirəcəyəm".**

Milli Məclisin deputatı, AMEA-nın Tarix İnstitutunun direktoru Yaqub Mahmudov bu fikirləri "Yeni Müsavat"a açıqlamasında söylədi. O, noyabrın 1-də keçiriləcək parlament seçkiləri ilə bağlı son qərarının olmadığını desə də, mandatın üstünlüklərindən də bəhs etdi: "Əlbəttə, Milli Məclisin deputatı olaraq çox çətin qapıları aça bilirik. Tarix İnstitutunun Milli Məclisin deputatı olması işlərimizə çox müsbət təsir göstərir, bunu mən etiraf edirəm. Lakin mən bu məsələlərlə ciddi maraqlanmıram. Çünki mən məsləhət bilinəcəyi, etimad göstəriləcəyi halda seçkilərə qatılacağam".

"Ya institut direktorluğu, ya mandat seçimi qarşısında qalsanız, hansına üstünlük verərsiniz" sualına cavabında Y.Mahmudov belə cavab verdi: "Mən güman etmirəm ki, Tarix İnstitutu, ümumiyyətlə, elmlə məşğul olan şəxslər seçim qarşısında qalsın. Dünya ölkələrində də belədir, alimlər Milli Məclisin əsasını təşkil etməlidir, orda elm hökmranlıq etməlidir. Amma mənim məlumatıma görə, seçim qarşısında qalmaq ehtimalı yoxdur. Ola bilər iş adamları, dövlət strukturlarında çalışanlar, yaxud son zamanlar rektorlarla bağlı məlumatlar gedir. Bunlar ola bilsin ki, seçim qarşısında qoyulsun. Amma elmi, pedaqoji fəaliyyətlə məşğul olan, alim Milli Məclisin canı olmalıdır. Etimad göstərilib-göstərilməməyindən asılı olmayaraq, mənim mövqeyim belədir ki, ölkənin parlamenti ziyalıların, alimlərin sözü ilə işləməlidir".

Y.Mahmudov parlamentin gəncləşməsi zərurəti haqda deyilənlərə də reaksiya verdi: "Mənim bu məsələyə mövqeyim belədir ki, alim qanunla məşğul olan "ştanqist", karate ustası deyil, sağlamlığı imkan verirsə, ondan maksimum istifadə olunmalıdır. Mənim isə enerjim, təcrübəm, yazıb-pozmaq bacarığıma görə nəzərdə tutduğunuz gənclərin hamısını özümlə yarışa çağırıram".

❑ E.PAŞASOY



## Poroşenko dəyişikliyə "hə" deməyə çağırdı

**Ukrayna prezidenti Petro Poroşenko ölkəsindəki bütün siyasi qüvvələrə çağırış edərək onun planını dəstəkləməklərini istəyib. Söhbət ölkə başçısının ölkənin şərqində separatçı münaqişəyə və özünün dili ilə desək, "Rusiya təcavüzünə son qoymaq üçün" konstitusiya dəyişikliyi planından gedir.**

Poroşenko Ukraynanın müstəqillik günü ərəfəsində Kiyevdə bayraq ucaldılması mərasimindən yararlanaraq öz tərəfdaşlarına səslənib ki, öz tərəddüdlərinə son qoysunlar və Ukraynanın şərqinə xüsusi status verilməsini nəzərdə tutan konstitusiya dəyişikliyini dəstəkləsinlər.

Dəyişiklik ilk olaraq parlamentdə avqustun 31-də səsə qoyulacaq. İkinci mərhələyə keçməsi üçün 226 lehinə səsin olması vacibdir. Bir qrup, xüsusilə də hərbi qüvvələrə bağlı olan qrup Rusiyayönlü separatçılara hər hansı güzəştə getməyin əleyhinədir.

# Neft kəskin ucuzlaşdı

**Brent markalı neftin qiyməti ucuzlaşmaqda davam edərək barrel üçün 45 dollar səviyyəsinə yaxınlaşıb. ANS PRESS-in məlumatına görə, hazırda London birjasında Brent markalı neftin bir barrelinin qiyməti 45,46 dollardır. Sutka ərzində ucuzlaşma 2,55% olub. Texas markalı neft isə sutka ərzində 2,15% ucuzlaşaraq barrel üzrə qiyməti 40,45 dollara düşüb.**



Ümumiyyətlə, neftin qiymətlərinin ucuzlaşması son 6 aydır ki, davam edir. Qiymətlərin düşməsinə əsas səbəb dünya neft bazarının xammal bolluğu, həm də son həftələrdə dolların bahalaşmasıdır. Brent markalı neftin qiyməti 40 sent ucuzlaşaraq bir barrel üçün 46 dollara çatıb.

Ucuzlaşma Azərbaycan neftinin qiymətində də qeydə alınıb. "AzəriLayt" markalı neftin bir barrelinin qiyməti London birjasında 0,38 dollar ucuzlaşaraq 48,09 dollar təşkil edib. Beynəlxalq ekspertlər neft qiymətlərinin qarşıdan gələn aylarda da təzyiq altında olacağını bildirirlər. Onların fikrincə, yay avtomobil səyahətləri mövsümünün başa çatması ilə neftə tələbat daha da azalacaq.

Ümumilikdə, bu il ərzində neftin qiymətinin ən aşağı səviyyəyə düşəcəyi proqnozlaşdırılır. Gələn il isə bu prosesin əksinə cərəyan edəcəyi gözlənilir. 2017-ci ilə qədər isə neftin qiymətinin 80 dollara qədər qalxa biləcəyi güman edilir.

## Bakının mərkəzində yeniyetmələrə qarşı cinayət

**Bakı şəhər sakini övladının Fəvvarələr Meydanında tanımadığı şəxslərin soyğunçuluğuna məruz qalması barədə polisə müraciət edib.**

Lent.az xəbər verir ki, 1974-cü il təvəllüdlü Hüseynov Əjdər Həsənağa oğlu bildirib ki, N.Rəfibəyli küçəsi 25 ünvanının qarşısında (Fəvvarələr meydanı) 2 nəfər naməlum şəxs onun oğlu, 16 yaşlı Kamranın "Stels" markalı velosipedini zorla əlindən alıb. Şikayətçi velosipedin qiymətinin təxminən 900 manat olduğunu da əlavə edib.

Oxşar məzmunlu şikayətlə 55 yaşlı Paşa İsmayılov da polisə müraciət edib. Şikayətçi qeyd edib ki, nəvəsi, 15 yaşlı Paşa İsmayılov Fəvvarələr meydanında tanımadığı şəxslərin zorakılığına məruz qalıb və həmin şəxslər yeniyetmənin "Merida" markalı velosipedini əlindən alıb.

Həyata keçirilən intensiv əməliyyat-axtarış tədbirləri nəticəsində soyğunçuluqda şübhəli bilinən Ələt sakini, 1997-ci il təvəllüdlü Həsənov Etibar Elçin oğlu müəyyən edilərək saxlanılıb. Onunla birgə soyğunçuluqda şübhəli bilinən İlqar adlı gəncin isə şəxsiyyəti müəyyənləşdirilib.

Araşdırmalar davam etdirilir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

## Lukaşenko siyasi məhbusları əfv etdi



**Belarus prezidenti Aleksandr Lukaşenko siyasi rəqiblərini bağışlayıb. O, prezidentliyə keçmiş namizəd Nikolay Statkeviçi və daha 5 müxalifətçini əfv edib. Virtualaz.org saytı xəbər verir ki, bu haqda BELTA agentliyi məlumat yayıb.**

Məlumata görə, "Belarus prezidentinin administrasiyası humanizm prinsipindən çıxış edərək" Nikolay Statkeviç, Yevgeni Vaskoviç, Nikolay Dedka, İqor Olineviç, Artyom Prokopenko və Yuri Rubtsovu həbsdən buraxmağı qərara alıb.

Xatırladaq ki, 2010-cu ildə Belarusda Minskin mərkəzində kütləvi etiraz aksiyaları ilə müşayiət olunan prezident seçkiləri keçirilib. Aksiyalarda etirazçılar Belarus MSK-nın yerləşdiyi hökumət evinə hücuma təşəbbüs göstərib. O vaxt 700-dək adam həbs edilmişdi.

Seçkidən sonra isə A.Lukaşenkonun 9 rəqibindən 5-i, o cümlədən ana müxalifət lideri N.Statkeviç həbs edilmişdi. O və digərləri kütləvi aksiyaların təşkilində suçlanaraq müxtəlif müddətə azadlıqdan məhrum olunmuşdu. N.Statkeviçə 6 il həbs cəzası verilmişdi. O, ciddi rejimli həbsxanada saxlanılırdı.

## Pirallahıda inşaat materialları oğurlayanlar tutuldu

**Pirallahıda Yüksək Texnologiyalar Parkından naməlum şəxslər "Mersedes" markalı avtomobildə inşaat materialları oğurlayıb. Axar.az Daxili İşlər Nazirliyinin saytına istinadən xəbər verir ki, briqadir işləyən Ağstafa sakini Şamxal Bayramov VAZ-2107 markalı avtomobillə onların qarşısını kəsib. Lakin onlar avtomobili vuraraq hadisə yerindən qaçıblar.**

Pirallahı rayon Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə hadisəni törətmiş Elmədin Hüseynov, Şəhriyar Cavadov və Tacı Əmrullayev tutulublar.

E.Hüseynovun Rusiya Federasiyası Cinayət Məcəlləsinin 162-ci (quldurluq) maddəsi ilə axtarışda olması da müəyyən edilib.

**"Elm" tədris mərkəzi**

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05

## Rusiyada 20 yaşlı azərbaycanlı qız oğurlandı

**Rusiyanın Nevski rayonunda əslən Azərbaycandan olan qızın oğurlanması faktı ilə bağlı işə baxılır. "Report" Rusiya mətbuatına istinadən xəbər verir ki, ilkin məlumatlara görə, 20 yaşlı qız azərbaycanlı nişanlısı tərəfindən qaçırılıb.**

Məlumata görə, ötən gün səhər saatlarında mağazada kassir işləyən 41 yaşlı qadın polisə müraciət edib. Azərbaycanlı qadın bildirib ki, avqustun 22-si saat 21:30-da Narodnı küçəsində yerləşən 14 saylı evin qarşısında üç nəfər onun 20 yaşlı qızını zorla Leninqrad nömrəli "VAZ-2114" markalı avtomobilə mindirərək naməlum istiqamətdə aparıb.

Qızın anası hesab edir ki, onun qızını Moskva sakini olan 24 yaşlı nişanlısı qaçırıb. Məlum olub ki, maşın onun Azərbaycandan gələn hansısa dostunun adına qeydiyyatdadır. Oğurluq faktı üzrə araşdırma aparılır, iş üzrə materiallar İstintaq Komitəsinə təhvil verilib.

## PKK türkləri Ərdoğan əleyhinə üsyana çağırdı

**PKK terror təşkilatı türk millətini AKP hökumətinə qarşı üsyana çağırıb. Avropa.info xəbər verir ki, Şimali İraqın Qəndil dağındakı kamplarının bombalanmasından sonra İrana qaçan Murad Karayılan Cəmil Bayıkın rəhbərlik etdiyi PKK-nın bir qolu olan KCK İcra Şurası Fırat Xəbər Agentliyinə (ANF) yazılı bir açıqlama göndərib.**

Bir sıra Qərb informasiya agentliklərində də dərc olunan açıqlamada terrorçular Gəziçiləri üsyana çağırıb: "Bu təcavüz qarşısında müqavimət göstərilmədiyi təqdirdə başda kürd xalqının azadlıq mübarizəsi olmaqla bütün demokratik qüvvələri əziləcək, beləliklə, AKP-nin avtoritar rejim yaratmaq məqsədinin qarşısında heç bir maneə qalmayacaq. AKP-ni durdurmaq lazımdır. Bu baxımdan Türkiyə xalqlarının da Səfərdə olduğu kimi hərəkətə keçməsi, kürd xalqı ilə birlikdə AKP-nin oyunlarını pozması lazımdır. Gəzi ruhunun ayağa qalxmasının əsl zamanıdır".

## Cihadçı Con İngiltərəyə baş kəsməyə dönəcək

**● İŞİD-in məşhur üzvü Cihadçı Con yeni videosu ilə gündəmə gəlib. O, görüntülərdə İngiltərəyə dönərək baş kəsməyə davam edəcəyini bildirir.**

Axar.az xəbər verir ki, bu barədə məlumatı İngiltərənin "Meyl" (Mail) qəzeti yayıb. Dərgi 1 dəqiqə 17 saniyəlik videonun ilk 8 saniyəsini yayımlayıb. Qəzetin məlumatına görə, yayımlanmayan videoda terrorçu İngiltərəni təhdid edərək, geri dönüb baş kəsməyə davam edəcəyini deyib.

"Cihadçı Con" ləqəbi ilə tanınan Böyük Britaniya vətəndaşı 27 yaşlı Məhəmməd Emvazinin görüntüləri mobil telefon vasitəsilə Suriyanın Deyr əz-Zor şəhərində çəkilib.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**





# "Ağ Blok"un təqdimatı oldu - "Gənclik meydanlara qayıdır"

## Blok parlament seçkilərində iştirak edəcək namizədlərini də təqdim elədi...

**Müxalifət düşərgəsində yeni qüvvə sayılan "Ağ Blok" dünən öz təqdimatını keçirib. Avqustun 23-də ADP-nin qərargahındakı iclas zalında keçirilən tədbirdə ölkənin aparıcı siyasi partiyalarının təmsilçiləri, gənclər, ziyalılar və hüquq müdafiəçiləri iştirak ediblər.**

Tədbir Azərbaycanın dövlət himninin səslənməsi ilə başlanıb. Həmçinin, son dövrlər gəncliyin itirilmiş, dünyasını dəyişmiş nümayəndələri olan Nərgiz Yaqublunun, Danyal bəyin, jurnalist Rüfət Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirin aparıcısı Cavanşir Abbaslı bildirib ki, haqqı nahaqqa verməyən, gələcəyinə biganə olmayan Azərbaycan gəncliyi bu gün yeni blok şəklində toplanır: "23 avqustu Azərbaycan tarixinə qızıl hərflərlə yazırıq. Biz Azərbaycan xalqının sosial sifarişini yerinə yetirmişik. Blok birbaşa, təkcə seçkilərə istiqamətlənməyib, "Ağ Blok"un hədəfi bu ilin noyabrında keçiriləcək parlament seçkiləridir. Amma təkcə bu seçkilər deyil, həm də sonrakı seçkilərdir. Biz ciddi dəyişikliyə nail ola biləcəyik. Çünki hər zaman gənclik mübarizənin önündə olub, öz sözünü deyib".

Daha sonra çıxış edən AXP sədri Pənah Hüseyn bildirib ki, bu, uğurlu bağlanğıcdır: "Uğurlu da olacaq. Mən buna inanıram, çünki biz qocalarıq. Və hər dəfə fürsət olan kimi deyirəm ki, gənclik də əbədi deyil. Gənc olanlar öz sözlərini desinlər, səslərini eşitdirsinlər, işlərini göstərsinlər. Bunlar olsa, nəticəsi də olacaq. Bu millət bizim millətdir, bu torpaq bizimdir. Bu dövlət bizimdir, sahibləri bizik. Sizsiniz, siz olacaqsınız!"



**Tural Abbaslı: "Bu hakimiyyəti siyasi rəhbərlikdən uzaqlaşdırmağa çalışacağıq!"**

Tədbir zamanı blokun parlament seçkilərindəki namizədlərinin də təqdimatı olub. Namizədlərdən keçmiş siyasi məhbus Əhəd Məmmədli bildirib ki, "Ağ Blok" ləkələnməmiş insanların birliyidir: "Blokun namizədləri əsasən Azərbaycan müxalifətinin aparıcı partiyaları olan Müsavat, Ümid, KXCP və digər partiyaların gəncləridir. Bu gənclər cəmiyyəti gələcəyə aparmağa iddialıdır. Yaşlı nəsil yanımızda, arxamızda olsun ki, irəli şığıya bilək".

Ümid Partiyasının təmsilçisi Xanlar Abbasov da qeyd edib ki, gənclik siyasi meydanlara qayıdır və mübarizənin effektiv olacağına ümid edir.

KXCP təmsilçisi Zəka Sahib isə bildirib ki, birləşdirici lider olan Əbülfəz Elçibəyin qəbri üstünə bir gedə bilməyən müxalifətdən fayda yoxdur: "Məğlubiyyətə məhkum olan müxalifəti meydandan çıxara biləcəyik".

Rüfət Hacıbəyli isə deyib ki, Azərbaycan siyasətində yeni səhifə açacaqlarına əmindir: "Ləkəsiz bir blok quracağıq. Yeni nəfəs gətirəcəyik. Tam fərqli qüvvə olacağıq".

Kərim Ağarza isə deyib ki, xalq iqtidara inanmadığı kimi, müxalifətə də inanmır: "Biz müxalifətə olan inamı bərpa edəcəyik. Xalq artıq bezib".

Elbəy Əsədov bildirib ki, ilkin hədəf builki parlament seçkiləridir: "İnsanları seçkiyə gətirəcəyik".

Namizədlərdən Tural Abbaslı insanların siyasətdən bezdiyi məqamda "Ağ Blok"un siyasi meydana daxil olmasının siyasi tələb olduğunu söyləyib: "Müxalifət neçə parlament, prezident, bələdiyyə seçkilərini yola verib, hələ də zaman istəyir. "Biz potensialımızı hələ göstərməmişik" deyirlər. Bizə müzakirə, daxili intriqa maraqlı deyil. Demokratik cəmiyyət qurulması, Əliyev rejiminin siyasi rəhbərlikdən uzaqlaşdırılması, normal demokratik cəmiyyətin qurulması üçün çalışacağıq. Bəsdir xalqdan zaman istədik"...

Sonda "Ağ Blok"un bəyanatı da səsləndirilib. Bəyanatda ölkə gəncliyi birliyə çağırılıb.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# Xədicə İsmayılın həbsinə səbəb olan gənc üzə çıxdı

## Tural Mustafayev: "Məndən əl çəkin..."





**"Azadlıq" radiosunun əməkdaşı, hazırda həbsdə olan Xədicə İsmayılın həbsinə səbəb olan Tural Mustafayev bir neçə günlük fasilədən sonra yenidən üzə çıxıb. Məlumdur ki, T.Mustafayev jurnalistin məhkəməsinə gələrək, daha öncə istintaqda onun əleyhinə vermiş olduğu ifadədən imtina etmiş, ondan sonra isə ortalıqda görünməmişdi.**

T.Mustafayev avqustun 23-də sosial şəbəkədə yazdığı statusla yeni məqamlara toxunub: "Rasim Əliyev öldü! Mingəçevirdə bir gənc öldü. Lap sabah mən də öldüm. Nə olacaq axı? Kimə güvənirsən? Avropa Birliyinə? NATO-ya? Amerikaya? Yoxsa min illər boyunduruq altında olan "Azərbaycan" xalqına? Hansı ki, min illər boyu tatar, türk, monqol, ləzgi, ya da Azərbaycan milləti olmağına inanmayan, seçkiləri 70 manata saxtalaşdıran millətə inanırsan? Məni 26-da məhkəməyə gəlib mövqeyimi müəyyənləşdirməyə çağırırsan. Lap yaxşı, mən gəldim və dedim ki, mənim mövqeyim vəkilimlə üst-üstə düşmür. Nə olacaq? 9 ildən işini 5 ilə endirəcəklər? Ya 9 il olsun, ya 5 il olsun. Əfv yazmaq istəsən, elə bunu birinci ildə edə bilərsən. Daha 5 il, ya da 9 il gözləməyə dəyməz. Sənin vicdanın kimi mənim vicdanım da təmizdir. İnanmaya bilərsən. Nə vaxtsa imkan olsa, hakimiyyət dəyişsə, arxivlər açılsa, hər şey gün kimi aydın olacaq. Mən səndən fərqli olaraq, heç kimə güvənmirəm. Sadəcə, özümə güvənirəm və inanıram ki, hər şey mənə də qismət olacaq, mən qisasımı alacam. Sadəcə, istəyim odur ki, məndən əl çəkin. Mən sizdən fərqli olaraq, haqqımı tələb etmək istəyirəm. Aktyorluq eləmək istəmirəm!!!"

❑ **Musavat.com**



# Manat üçün kritik həftə başladı

## İqtisadçı ekspert: "Mərkəzi Bank pərdə arxasında durmamalıdır"

**Azərbaycan Mərkəzi Bank (AMB) valyuta bazarında ajiotajı aradan qaldırmaq üçün banklara şifahi xəbərdarlıq göndərib. Mərkəzi bank xəbərdarlığında kommersiya banklarına dolların satış məzənnəsinin maksimal həddinin 1,055 səviyyəsində götürülməsini tövsiyə edib. Mərkəzi Bankın bu tələbinə əməl etməyən banklarla bağlı qanunvericiliyə uyğun ölçü götürüləcəyi bildirilir.**

Qeyd edək ki, Mərkəzi Bankın tələbinə əsasən valyutanın alış-satış məzənnəsi rəsmi məzənnədən maksimum 2 faiz yuxarı və yaxud aşağı ola bilər. Bu xəbərdarlıq isə vətəndaşlarda növbəti devalvasiyanın baş verəcəyi ilə bağlı panika yaradıb. Biz də valyuta məntəqələrinə baş çəkib mövcud vəziyyəti, dolların alış və satış qiymətini öyrənmək istəsək də, cəhdimiz boşa çıxdı. Çünki baş çəkdiyimiz valyuta dəyişmə məntəqələri bağlı idi.

Manatla bağlı olan bu gərginliyin nə vaxta kimi davam edəcəyinə gəlincə isə iqtisadçı ekspert Samir Əliyev bu həftənin manatın taleyində böyük rol oynayacağını dedi: "Mən düşünmürəm ki, Mərkəzi Bankın son məktubu panika yaradıb. Əslində o məktubun məğzi ondan ibarətdir ki, banklara göstəriş verilir ki, banklar dolları nəzərdə tutulan həddən, yəni 1.055 həddindən baha satmasınlar. Şənbə-bazar banklarda iş günü deyil və Mərkəzi Bank da istirahət günləri bankların işləməməsini nəzərə alaraq panikanı önləmək üçün bu addımı atdı ki, göstərilən rəqəmdən baha satılmasın. Banklar, təbii ki, vəziyyətdən sui-istifadə edib baha qiymətə sata bilərdi. Hansı ki indi 1.07 hətta, 1 manat 10 qəpiyə də dolların satılması hallarına rast gəlinir. Halbuki bu Mərkəzi Bankın birbaşa yazdığı məktubda göstərdiyi həddə, yəni 1 manat 5 qəpikdən bahadır. Bu baxımdan düşünürəm ki, bu məsələdə mətbuat diqqətli olmalıdır. Dollar Mərkəzi Bankın göstərdiyi həddən yuxarı, yəni 1.07, 1.08, 1.10, 1.20 satılırsa, bu xəbər mətbuata ötürülməlidir ki, Mərkəzi Bank həmin faktı əsas tutaraq həmin valyuta dəyişmə məntəqəsini cəzalandırsın".

Ekspert əhalinin növbəti devalvasiyanın olacağı ilə bağlı panikasının obyektiv və subyektiv səbəblərindən də danışdı: "Əhalinin bu panikasını ətrafdakı proseslərə görə obyektiv qəbul etmək olar. Yəni neftin qiyməti düşməyə başlayır, Rusiya rublu yenidən ucuzlaşıb. Qazaxıstan devalvasiyaya getdi, Türkiyədə də valyuta ucuzlaşdı. Düzdür, bu ucuzlaşmaların hər birinin özünün səbəbləri var. Məsələn, Türkiyədə siyasi proseslərlə bağlı ucuzlaşmadırsa, Rusiyada neftin ucuzlaşması və ölkəyə qarşı tətbiq edilən sanksiyalara görədir. Amma ümumi götürəndə diqqət etsək görərik ki, oxşar proseslərdir. Azərbaycanda fevral devalvasiyasından əvvəlki proseslər hazırda da təkrarlanır. Oxşar proseslər olduğu üçün də insanlar panikaya düşüblər. Bu ajiotaj da təbiidir. Subyektiv tərəf isə bundan ibarətdir ki, müvafiq qurumlar, xüsusən də Mərkəzi Bank bu məsələdə pərdə arxasında durmamalıdır. Cəmiyyətlə, mətbuatla, ekspertlərlə, vətəndaşlarla işləməli, müzakirələr aparmalı, insanları bu vəziyyətlə bağlı açıq məlumat verilməlidir. Ancaq Mərkəzi Bank susur. Ondan heç bir xəbər, reaksiya yoxdur və bu da insanlarda təbiidir ki, narahatçılıq, panika yaradır. Düşünürəm ki, hər bir halda bu məsələ çox həssas məsələ olduğuna görə hökumət diqqətli olmalıdır. Manatın gələcəyi ilə bağlı fikir söyləmək çox çətindir. Çünki qərarı Mərkəzi Bankın timsalında hökumət verir. Əgər neftin ucuzlaşması davam edərsə, ən azı indiki səviyyədə qalar və bir az da ucuzlaşarsa, mən düşünürəm ki, manatın devalvasiya məsələsi əvvəl-axır reallaşacaq. Onsuzda bu təhlükə, ehtimal var. Hər bir halda son iki günün məlumatı göstərdi ki, Mərkəzi Bank ehtiyatlarını kifayət qədər xərcləyib. Yəqin ki, proses bu cür davam edəcəyi təqdirdə gələn həftə də ehtiyatların xərclənmə prosesi davam edəcək. Ona görə də burada prosesi analiz edib düzgün qərar qəbul etmək lazımdır. Mən hər bir halda düşünürəm ki, bu həftə çox gərgin və məsuliyyətli bir həftə olacaq. Ümid edək ki, hökumətin bu həftə atacağı addım düzgün olacaq".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 185 (6213) 24 avqust 2015

## Yenidən dirçələn "Hafka" Ziya Məmmədova meydan oxudu



# "Mənə arxadan zərbə vuranlar..."

### Beynəlxalq Bankdan götürüb qaytarmadığı kreditə görə həbs təhlükəsi ilə üzləşmiş Hafiz Məmmədov Azərbaycana qayıdıb; onun birdən-birə dirçəlməsi suallar doğurur; qalmaqallı biznesmen yaxın ətrafı ilə keçirdiyi toplantıda pis günlərin arxada qaldığını deyib

**Ötən həftəsonu Beynəlxalq Banka kredit borcunu qaytarmadığı üçün həbs edilən 17 iş adamının həbs müddəti uzadıldı. Qeyd edək ki, həbs edilən bütün biznesmenlər DİN Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin və Ədliyyə Nazirliyinin 1 saylı istintaq təcridxanalarında saxlanılırlar. İddialara görə, bu günə qədər borclu oliqarxlardan cəmi 160 milyon dollar geri alına bilib. Bu səbəbdən də həbslərin davam edəcəyi gözləniləndir.**

Həbs təhlükəsi ilə üzləşən və buna görə ölkəni tərk edən, daha sonra isə yenidən Azərbaycana dönən Hafiz Məmmədovun ("Hafka") adı isə sanki yaddan çıxıb. Çünki Beynəlxalq Bankdan çox böyük həcmdə kredit götürüb qaytarmayanlardan biri də məhz H.Məmmədovdur. Banka bir neçə 100 milyon manat borcu olan "Hafka" aldığı krediti qaytarmadığına görə Beynəlxalq Bank tərəfindən hətta məhkəməyə də verilib. H.Məmmədov Beynəlxalq Bankdan 100 milyonlarla manat krediti 2008-ci ildə yaratdığı "Baghlan Group" holdinqin adına götürüb. Xatırladaq ki, H.Məmmədov barəsində Nəsimi Rayon Məhkəməsinin hələ mayın 18-də həbs qətimkan tədbiri seçdiyi barədə xəbərlər yayılmışdı. Həbs ediləcəyindən əvvəlcədən xəbərdar olan iş adamı Azərbaycandan çıxa bilmişdi. Məlum olmuşdu ki, qalmaqallı biznesmen Londondadır və müalicə olunur.

İqtidarın Beynəlxalq Bankdan götürülən kreditlərin mənimsənilməsi ilə bağlı başlanmış cinayət işində heç kimə güzəştə getməməsi xəbərləri fonunda "Hafka"nın adının borclular siyahısında hallanmaması təəccüb doğurur.

Əldə etdiyimiz məlumata görə, borc bataqlığında olan "Hafka" son bir ayda möcüzəvi şəkildə dirçəlib. Bunu onun prezidenti olduğu "Bakı" klubunun maliyyə vəziyyətinin düzəlməsi də təsdiq edir. Belə ki, bir neçə gün əvvəl "Hafka" futbolçuların hətta başa çatmamış avqust ayına olan məvaciblərini verib. Klubun sahibi futbolçulara çatdırıb ki, bundan sonra maaşlarını vaxtında alacaqlar.

Daha maraqlı və sensasion hadisə isə biznesmenin "Bakı" klubunun rəsmiləri ilə görüşündə baş verib. "Hafka" onun əleyhinə kampaniya aparanların tezliklə əməllərindən peşman olacaqlarını bildirib. H.Məmmədov "çox şükür, indi çox rahatam, bütün problemlər, demək olar, həll olundu, qalıb 1-2 məsələ... Onlar da vaxt almayacaq" - deyib. O, kimlərəsə mesaj da verib: "Görəcəksiz, ayağıma gələcəklər. Mənə arxadan zərbə vuranlar öz cəzalarını alacaqlar. Mən Allahıma və dövlətimə çox inanıram. Haqq iş yerdə qalmaz. Son 2 ildə olanları heç kimə arzu eləmirəm. Yaxşı günlərimiz bundan sonra başlayır. Ümumiyyətlə, çox adamı tanıdım".

Məlumdur ki, "Hafka"nın sahibi olduğu "Bakı" futbol klubunda maliyyə böhranı səbəbindən klubun səhmlərini nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovla Beynəlxalq Bankın o vaxtkı sədri Cahangir Hacıyev nəzarətə keçirmək üçün çox çalışırdılar. "Hafka"nın tikanlı sözlərinin də C.Hacıyevə və bir vaxtlar verdiyi müsahibədə "atam" dediyi Ziya Məmmədova ünvanladığı aydındır.

H.Məmmədov uzun müddət Ziya Məmmədovla biznes ortağı olub və onun himayədarlığı altında iqtisadi imperiya qurub. Lakin iş adamının iflasa uğraması, nəqliyyat nazirinin ona yardım etməməsini göründüyü kimi, "Hafka" "arxadan zərbə" hesab edir.

İddialara görə, "Hafka"nın Məmmədovlarla artıq heç bir ortaqlığı qalmayıb. İş adamı isə daha qüdrətli bir məmur-oliqarxın "krışalığı"altına keçdiyindən maliyyə vəziyyətini düzəldib və həbs təhlükəsindən qurtulub. Amma bu "krışalıq" müqabilində H.Məmmədov biznesinin ən gəlirli sahəsindən - neft daşımaları biznesindəki kvotasından məhrum olub. Çünki H.Məmmədovun sürətlə milyarderə çevrilməsi məhz neft daşımalarındakı payı sayəsində mümkün olmuşdu və o, həmin biznesdən əldə etdiyi gəlirləri biznesin digər sahələrinə yönəldərək sərvətini artırırdı. İndi isə özünün dediyi kimi, problemlərini həll edib və rahatdır. Amma onun əvvəlki qüdrətini qaytaracağı və kimlərinsə onun ayağına gələcəyi real deyil.

❑ **"Yeni Müsavat"**

# Deputat oğlu Gömrük Komitəsindəki işindən uzaqlaşdırıldı

**Deputat Elmira Axundova və oğlu Həbib Axundovun adının 8 milyonluq dələduzluq qalmaqalına qarışdığı haqda məlumat vermişdik. Deputat və oğlu onlara yönəlik ittihamların doğru olmadığını söyləsələr də, qarşı tərəf iddialarında israrlıdır.**

**"Yeni Müsavat"a müraciət edən Ziya Vəliyev, Elvin Vəliyev, Sabir Ağayev, Fərman Məmmədov və Şahin Məhərrəmov deyirlər ki, Həbib Axundovun dostu Elnur İbrahimovla yaratmış olduqları maliyyə fırıldağı piramidasının qurbanlarıdırlar.**

Onlar redaksiyamıza təqdim etdikləri müraciətdə qeyd edirlər ki, Həbib Axundov və Elnur İbrahimovun əməlləri nəticəsində Ziya Vəliyevin 205 min, Elvin Vəliyevin 202 min, Sabir Ağayevin 115 min, Şahin Məhərrəmovun 70 min, Fərman Məmmədovun isə 575 min məbləğində pulları əllərindən çıxıb. Müraciət müəllifləri yazır ki, onlar əvvəlcədən planlaşdırılan dələduzluq cinayəti ilə üz- üzə qalıblar. Məhz Həbib Axundovun vasitəsi və zəmanəti ilə birbaşa onun özünə və hazırda CM-nin 178.3.2-ci (dələduzluq) maddəsi ilə axtarışda olan Elnur İbrahimova pul verdiklərini iddia edirlər.

"Elnur İbrahimov hazırda axtarışdadır və onun tapılaraq məsuliyyətə cəlb olunması hansısa şəxslərin maraqlarına uyğun olmadığından, 1 ildən artıqdır ki, bu istiqamətdə hər hansı iş görülmür. Həbib Axundov isə bütün günahları Elnur İbrahimovun üzərinə ataraq, ona qarşı olan ittihamları rədd edir və öz himayədarlarının köməkliyi ilə məsuliyyətdən kənarda saxlanılır. Mətbuat səhifələrində deputat oğlu Həbib Axundovun dəbdəbəli həyatı, bahalı istirahəti və əmlakları barədə məlumat verilmiş və biz zərərçəkmişlər Həbib Axundovun bu əmlakı işlədiyi Gömrük Komitəsindən aldığı 486 manat maaşla əldə edilməsinin mümkün olmadığını qeyd edirik. Bildiririk ki, həmin əmlaklar məhz onun Elnur İbrahimovla birgə fəaliyyəti nəticəsində biz zərərçəkmişlərdən ələ keçirdiyi əmlakları hesabına əldə olunub. Bizdə olan məlumatlara görə, Həbib Axundov Gömrük Komitəsindən işdən çıxarılıb. Buna baxmayaraq, Axundovlar ailəsi dəyəri yüz minlər və milyonlarla ölçülən yeni-yeni əmlaklar əldə etməkdə davam edirlər.

Həbib Axundov təxminən 2012-ci ilədək Rusiya istehsalı olan "OKA" və "VAZ" markalı avtomaşınların sahibi olub. Onun birdən-birə belə varlanaraq, dəyəri yüz minlərlə olan bahalı Avropa istehsalı olan avtomaşınlar alması və şəhərin mərkəzində 6 mərtəbəli qeyri-yaşayış binası tikdirməsi, Port Baku yaşayış kompleksində sahəsi 370 kv.m olan 2 mənzil alması, Türkiyə, İngiltərə, ərəb ölkələrindəki bahalı istirahətləri Elnur İbrahimovla qurduğu "biznes plan"ın dividendləridir" - deyə adıçəkilən şəxslər redaksiyamıza müraciətlərində qeyd edirlər.

Ziya Vəliyev bildirib ki, yaxın dost olan H.Axundov və E.İbrahimovla 2006-cı ildə tanış olub. 2013-cü ilin mart ayında E.İbrahimov söhbət əsnasında bildirdi ki, kartriclər və ofis ləvazimatlarının ölkəyə gətirilməsi, satışı ilə məşğul olur. Bu işdən yaxşı qazanc götürür: "Mənə də dedi ki, pulun varsa ver, üzərində əlavə qazancla birlikdə pulunu qısa müddətdə qaytarım. Elnurun belə maraqlı təklif etməsinə baxmayaraq, mən ona pul vermədim və soruşdum ki, bu işi o, kiminlə və necə görür? Elnur isə cavabında bildirdi ki, "bu iş monopoliyadır. Mallar ölkəyə gömrüksüz keçirilir və buna görə də ucuz başa gəlir. Biz də yaxşı qazanc götürürük. Mən də bu işləri Həbib Axundovla şərikli görürəm". Mən həqiqətən Elnurun ofisində olarkən, yük maşını ilə ofis ləvazimatları və kartricləri qəbul edib, yola salmasını görmüşdüm. Lakin Elnurun belə bir böyük biznesi təkbaşına qurması və idarə etməsinə əmin olmadığımdan, Həbibdən həqiqətən Elnurla belə bir iş görüb-görmədiklərini soruşdum və Həbib də mənə Elnurun dediklərini təsdiq edərək, onunla birlikdə bu işi gördüyünü bildirdi. Bundan sonra Elnurun təklifinin ciddiyyətinə bir qədər də inandım. Çünki Həbibi də şəxsən tanıyırdım, onun Dövlət Gömrük Komitəsində işləməsi, deputat Elmira Axundovanın oğlu olması və Həbibin özünün Elnurun dediklərini təsdiq etməsi məndə ona inamı bir qədər də artırdı. Bu söhbətlərdən bir neçə gün sonra Elnur məndən iki-üç günlüyə, üstündə qazanc olaraq 1000 manat verməklə, 10 min manat pul istədi. Elnurun kiminlə işlədiyini araşdırdığımdan təklifi ilə razılaşdım və ona 10 min manat verdim. Elnur dediyi kimi iki-üç gündən sonra məndən aldığı pulu və qazancı qaytardı. Sonra Elnur bildirdi ki, çox pul versəm, o, həmin pulu dövriyyəyə buraxar və mənə bir o qədər böyük məbləğdə qazanc verər. Elnurun kiminlə işlədiyini bildiyimdən bu təkliflə razılaşıb, evimizdə olan 50 min manatı gətirib "Nizami" metrosunun yanında ona verdim. Bu işə inandığımdan qohum və dostlarımın verdikləri 205 min manatı da alıb Elnura verdim. Lakin iyul ayından başlayaraq Elnur məndən qaçmağa və telefon zənglərinə cavab verməməyə başladı. Hiss etdim ki, Elnurla Həbib məni aldadıblar".

## Elmira Axundovaya və oğluna qarşı ittihamlar isə səngimir





Şikayətçi deyir ki, belə olduqda H.Axundovla əlaqə saxlayıb hadisə barəsində danışıb: "Pulumun qaytarılmasını istədim. Həbib dedi ki, Elnurla danışıb bu məsələni həll edəcək. 2 gün sonra Həbib məni Şüvəlandakı öz bağlarına dəvət etdi. Bağda olan söhbətlərdən məlum oldu ki, pulu qaytarmaq mümkün deyil. Həbib bildirdi ki, pul yoxdur, guya Elnur ona da "atıb". Həbib dedi ki, Yasamal Rayon Polis İdarəsində həmişə iş gördüyü yaxın tanışı var. Elnuru aparaq polis idarəsinə. Sonra da Həbib Yasamal RPİ-də olan Seymur adlı müstəntiq tanışına zəng etdi. Həbib Seymura bildirdi ki, bəs belə bir hadisə olub və Elnuru həbs etmək lazımdır. Seymur isə cavabında Elnurun Yasamal RPİ-nə gətirilməsini istədi. Həbib maşında Elnura deyirdi ki, "sən polisdə pulu tək yediyini boynuna al, kişi deyil yalan deyən, hər ay sənin ailənə 500 AZN verəcəm. Mama (Elmira Axundova) Əfv Komissiyasının üzvüdür, səni yarım "sroka" içəridən çıxartdıracam". Beləliklə, biz Yasamal RPİ-nə gəldik və oraya çatanda artıq orda 20-30 nəfər də adamların toplaşıb Elnuru və Həbibi gözlədiklərini gördüm. Elnuru müstəntiq Seymurun otağına apardıq, lakin Seymur Elnuru həbs etməkdən imtina etdi. Mən və ora gəlmiş şəxslərdən bir neçəsi ərizə ilə rəsmi müraciət etmək istəsək də, müstəntiq və Həbibgil bizə ərizə yazmağa imkan vermədi. Sonra Seymur Polis İdarəsinin həyətində Həbib və Elnurla nəsə danışdılar və bu vaxt Elnur yüksək səslə Həbibə dedi ki, "sən nə deyirsən alə, bilirsən ki pulları gətirib sənə vermişəm". Bunu deyən kimi Həbib müstəntiqin və həmin vaxt həyətdə olan digər polislərin yanında yumruqla vurub Elnurun burnunu sındırdı və sonra kənara çəkib onunla nəsə danışdılar. Bundan sonra Həbiblə Elnur bizə yaxınlaşdı və Elnur bildirdi ki, "Həbiblə razılaşmışıq, narahat olmayın, burdan çıxaq, 3-5 günə pullarınızı geri verəcəyik". Biz də onların sözlərinə inanıb oradan getdik. Həmin hadisədən təxminən 5 gün sonra Həbibin dəvəti ilə mən və əmimoğlu Elvin təkrar Həbibgilin Şüvəlandakı bağ evinə getdik. Biz saatlarla bağın önündə gözlədik. Təxminən gecə saat 03-00 radələrində Həbib özü qapıya çıxaraq dedi ki, "biz bir qərara gələ bilmədik və mama (Elmira Axundova) ilə danışdım, bəs mama da dedi ki, orda özbaşına iş görməyin. Elnuru gətirin Qəbələyə mənim yanıma, biz də Elnuru Qəbələyə mamanın yanına aparırıq". Bundan sonra biz yenə də əlacsız qalıb evimizə qayıtdıq. Həmin gecə Həbib Elnuru Qəbələyə mamasının yanına apardı. Səhəri gün geri qayıdanda Həbib bildirdi ki, "mama yüksək səviyyəli şəxsə zəng edib, narahat olmayın, məsələ ilə məşğul olacaqlar". 3 gün sonra - 9 sentyabr 2013-cü ildə Elnur ölkədən qaçırıldı".

Şikayətçilər deyir ki, həmin gündən 2 ilə yaxın müddət ötüb, amma üzləşdikləri dələduzluq əməli ilə bağlı başlanmış cinayət işinin nəticəsi yoxdur. Onlar iş üzrə obyektiv araşdırma aparılmasını və onlara olan təzyiqlərə son qoyulmasını istəyirlər.

❑ **E.MƏMMƏDƏLİYEV**

P.S. Qarşı tərəfi də dinləməyə, mövqeyini dərc etməyə hazırıq.

# Mingəçevir olaylarının yeni təfərrüatları - şok detallar

## Bəhruz Hacıyev adlı gəncin polis şöbəsində ölümü kütləvi etirazlar doğurdu; saxlanılanlar arasında polis əməkdaşı da var; polis rəisinə şiddətli töhmət verilib; mərhumun atası: "Oğlumu elektroşokla öldürüblər..."; Prezident hadisəni şəxsi nəzarətinə götürdü...


Bəhruz Hacıyev

**Avqustun 20-də Mingəçevir Şəhər Polis Şöbəsində həyatını itirən 24 yaşlı Bəhruz Hacıyevin ölümündən sonra şəhərdə yaşanan gərginlik səngiyib. Qəzetimizin Mingəçevirə ezam olunan reportyoru xəbər verir ki, həmin gün gecə saatlarında şəhərin küçələrində Post Patrul Xidmətinin əməkdaşları növbə çəkiblər.**

B.Hacıyevin yaxınları onun polis tərəfindən işgəncə verilərək öldürüldüyünü iddia edirlər. Daxili İşlər Nazirliyinin yaydığı rəsmi məlumatda isə Hacıyevin narkotik vasitələrin satışında və istifadəsində şübhəli bilinərək Mingəçevir Şəhər Polis Şöbəsinə gətirildiyi, xidməti otaqlardan birində dindirilərkən qəfildən özünü pəncərədən aşağı atdığı deyilir.

Qeyd edək ki, avqustun 22-də dəfn mərasimində iştirak edən bir qrup şəxs şəhər meydanına gələrək etiraz aksiyası keçirmişdilər. Bu zaman polislə etirazçı kütlə arasında qarşıdurma yaranmış, tərəflər arasında yaralananlar olmuşdu. Rəsmi məlumata görə, polis 21 aksiya iştirakçısını saxlayıb. Lakin hadisə şahidlərindən əldə etdiyimiz məlumata görə, saxlanılanların sayı qeyd ediləndən çoxdur. Toqquşma zamanı polis əməkdaşlarından da yaralananlar olduğu, 1 polis maşınının yararsız hala salındığı deyilir.

B.Hacıyevin yaxınlarının verdiyi məlumata görə, mərhumun bədənində "dubinka" və elektroşok izləri olub, Hacıyev əsas xəsarəti də elektroşok zamanı alıb. Onun qaraciyərinin ciddi zərər gördüyü və bu səbəbdən də öldüyü bildirilir. Əldə etdiyimiz digər məlumat isə B.Hacıyevin necə saxlanılması ilə bağlıdır: B.Hacıyev polis işləyən sinif yoldaşı ilə şəhər meydanında görüşərkən onlara bir avtomobil yaxınlaşıb. Hadisə şahidlərinin dediyinə görə, avtomobildə hüquq-mühafizə orqanlarının əməkdaşları olub. Onlar B.Hacıyevin maşına oturmasını istəyiblər. B.Hacıyev elə öz sinif yoldaşı tərəfindən qolu burularaq maşına mindirilib. Bu zaman B.Hacıyevin yanında başqa dostu da olub.

Onların hər ikisini birlikdə polis idarəsinə gətiriblər. Lakin Mingəçevirdə iğtişaşlar başlayan gün B.Hacıyevin dostu sərbəst buraxılıb. Başqa ilginc məlumat isə B.Hacıyevin intihar etməsi iddiası ilə bağlıdır. Mərhumun valideynləri onun intihar etmədiyini, öldürüldükdən sonra binadan atıldığını deyərək, günahkarların cəzalandırılmasını tələb edirlər.

B.Hacıyevin yaxınlarına onun polis bölməsinə normal şəkildə gətirilməsini əks etdirən görüntülər göstərilib. Lakin onun intihar etməsini, özünü pəncərdən atmasını əks etdirən heç bir görüntü yoxdur. Mərhumun yaxınları Haceyevin intihar etdiyi deyilən yerin kamerlar tərəfindən müşahidə olunduğunu, amma bunu əks etdirən görüntünün olmamasından narazıdır.

Xatırladaq ki, sakinlərin kütləvi etirazından sonra prezident İlham Əliyev məsələni nəzarətə götürüb. Fakt üzrə cinayət işi başlanılıb və istintaq aparılır. Müəyyən edilib ki, Mingəçevir Şəhər Polis Şöbəsinin Cinayət Axtarışı Bölməsinin əməliyyat müvəkkili, polis baş leytenantı Şahlar Şahlarzadənin cinayətdə şübhəli şəxslərin saxlanılması və mühafizəsinə dair vəzifə təlimatının tələblərini pozaraq Bəhruz Hacıyevin təhlükəsizliyinin təmin etməməsi və sayıqlığını itirməsi ağır nəticəyə səbəb olub.

Daxili təhqiqatın yekununa əsasən, daxili işlər nazirinin əmri ilə polis baş leytenantı Şahlar Şahlarzadə daxili işlər orqanlarında xidmətdən xaric edilib. Eyni zamanda tabelikdəkilərin xidməti fəaliyyətinə nəzarəti zəiflətdiyinə, cinayət törətməkdə şübhəli olduğuna görə gətirilən şəxslərin saxlanılması işini düzgün təşkil etmədiyi üçün Mingəçevir Şəhər Polis Şöbəsinin rəisi, polis polkovniki Ələsgər Bədəlova şiddətli töhmət elan olunub.

*****

Ən son məlumata görə, Mingəçevirdə polislə toqquşmalarda iştirak edənlərin həbsi davam edib. Həbslər əsasən Mingəçevirin kənd hissəsində həyata keçirilib. Sakinlərin məlumatına görə, ötən gecə saatlarında kəndə üzü maskalı şəxslər zirehli maşınlarla daxil olublar. Saxlanılanların aksiya fəalları olduğu bildirilir. Onların polis şöbəsində olduqları bildirilir. Polis şöbəsindən musavat.com-a saxlanılanların vəziyyəti və sayı barədə məlumat veriləcəyi deyilib. Saxlanılanların yaxınlarına bildirilib ki, izahat alındıqdan sonra onlar sərbəst buraxılacaqlar.

"Əgər mənim rəis olduğum dövrdə 4 ölüm hadisəsi olsaydı, indi məni çoxdan işdən qovmuşdular. 10 il əvvəl burada bir nəfər döyülüb, ona görə 3 nəfər polis həbs olunub. Başqa hadisə olmayıb, yazılan 4 hadisənin nə olduğunu mən bilmirəm". Bu sözləri "Meydan TV"-nin müxbirləri ilə söhbətində Mingəçevir Şəhər Polis Şöbəsinin rəisi polkovnik Ələsgər Bədəlov deyib.


Ələsgər Bədəlov

Avqustun 23-də Mingəçevir şəhərində çəkiliş aparan "Meydan TV"-nin əməkdaşları şöbəyə dəvət olunublar. Onların suallarını baş vermiş hadisə ilə bağlı Mingəçevir şəhərinə ezam edilən DİN əməkdaşı, general Cavanşir Məmmədov və polkovnik Ələsgər Bədəlov cavablandırıblar.

Rəis bildirib ki, faktla bağlı CM-nin 125-ci maddəsinə uyğun olaraq cinayət işi başlanılıb: "7 dəfə mərhumun atası bu otaqda olub. Bütün tələblərinə əməl etmişik. Ekspertin dəyişdirilməsini istəyib, başqa yerdən gətirmişik. Bundan sonra 50 dəfə gəlsə, yenə qəbul edib, dinləyəcəyik. Özünə də demişik ki, şöbənin içərisindəki kameralar yalnız nəzarət üçündür, qeyd etmir. Ancaq bayırda olan görüntülərlə tanış etmişik. Məsələ ilə bağlı polis baş leytenantı Şahlar Şahlarzadə işdən çıxarılıb, hazırda saxlanılıb. Çünki Şahlar hal şahidi gətirməyə getməklə səhlənkarlığa yol verib. Mənim özümə də şiddətli töhmət verilib. Çox doğru qərardı, mənim də səhvim olub, nəzarətsiz buraxmışam".

Cavanşir Məmmədov isə bildirib ki, qarşıdurmanın yaranmaması üçün mərhumun yaxınları ilə görüşüblər. Buna baxmayaraq, qarşıdurma baş verib: "Aksiya zamanı 15 nəfər saxlanılıb. Onların hamısı şöbədədir. Heç biri Gəncəyə aparılmayıb. Onlardan 6-7-nin işi prokurorluğa təqdim olunub, qalanları məhkəmə qərarı ilə yəqin ki, inzibati qaydada cərimələnəcəklər".

Hazırda şəhərdə tam sakitlik olduğunu deyən Ələsgər Bədəlov qeyd edib ki, videogörüntülərdə aksiyanın keçirilməsinə çağırış edən şəxslər müəyyənləşdirilir. O, videogörüntülərə düşmüş 3 nəfərin bölməyə gətirildiyini təsdiqləyib: "Aksiya zamanı 10 polis əməkdaşı müxtəlif bədən xəsarətləri alıb. Prokurorluğun müstəntiqi isə morqda meyiti müayinə edərkən döyülüb. Faktla bağlı araşdırma başlanıb. Hamı bilməlidir ki, polis də cavab verəcək, vətəndaş da. Hələ heç vətəndaş bilmir ki, polis həbs olunub. Heç kimə ixtiyar verilmir ki, qanunu pozsun. Dövlətin vəzifəsi vətəndaşını qorumaqdır, ona görə də lazım gələndə gücünü göstərməlidir".

*****



Bu arada avqustun 20-də Bəhruz Hacıyevlə birgə polis şöbəsinə gətirilən Vaqif Hacıyev açıqlama verib. O, musavat.com-un Mingəçevirə ezam olunmuş reportyotu ilə söhbətində Bəhruzla birgə həbs edilməsi anını və sonra baş verənləri danışıb.

Bəhruz Hacıyevlə dost olan Vaqif Əzizov həmin gün bir yerdə olublar. Kənddə görüşən dostların yanında Dilqəm adlı daha bir kənd sakini də olub. B.Hacıyev kənddə olan Samir adlı polisi görüb. B.Hacıyev dostlarından Samirlə görüşmək üçün ayrılıb. Əzizov bundan sonra baş verənləri belə danışıb: "Bəhruz Samirlə görüşməyə getdi. Görüşəndə Samir Bəhruzun qolunu burdu. Başqa bir maşın gəldi. İçində mülki geyimli polislər də var idi. Dilqəmi buraxdılar. Samir dedi ki, məni də tutsunlar. İkimizi bir maşına mindirdilər. Samir də öz maşını ilə şöbəyə gəldi. Məni şöbənin 1-ci mərtəbəsinə, Bəhruzu da 3-cü mərtəbəyə apardılar. Başımı aşağı əymişdilər. Heç nə görmürdüm. Üstümüzü yoxladılar, siqaret və puldan başqa heç nə yox idi. Bir az keçmişdi ki, səs-küy düşdü. Soruşdum ki, nə olub? Dedilər ki, Bəhruz özünü pəncərədən atıb. Mən inanmadım. Dedim ki, o, özünü ata bilməz".



Polis şöbəsində Bəhruz və Vaqifi narkotik istifadəçisi olub-olmaması barədə sorğu-sual ediblər. Vaqifdən analiz də alınıb. Məlum olub ki, o, narkotik istifadəçisi deyil. Əzizov avqustun 20-də Bəhruz Hacıyevin ölümündən sonra kənd sakinlərinin polis şöbəsinin qarşısına yığışmalarından sonra buraxılıb. Ancaq V.Əzizov avqustun 21-də yenidən şəhər prokurorluğuna çağırılıb. O, yenidən eyni ittihamlarla bağlı ifadə verib.



B.Hacıyevin atası Dilsuz Hacıyev də musavat.com-a açıqlama verib. D.Hacıyev günahkarların cəzalandırılmamasından narazıdır. Oğlunun günahsız yerə polis şöbəsinə aparıldığını və orada öldürüldüyünü deyən Dilsuz Hacıyev cəsədi sonra morqa aparılmasının, yarılmasının da qanunsuzluq olduğunu bildirib.

"Oğlumu elektroşokla öldürüblər. Bütün bədəni qaralmışdı. Elektroşokdan ürəyi dayanıb. Öləndən sonra da ya pəncərədən atıblar, ya da gətirib, binanın qabağına qoyublar ki, guya özünü pəncərədən atıb" - deyə B.Hacıyevin atası bildirib.



Ata oğlunu polis bölməsinə aparan şəxslərin, eləcə də Samirin həbs edilməsini tələb edib. O, oğlunun həmin polislər tərəfindən şərləndiyini və sonradan polis bölməsinə aparılaraq, öldürüldüyünə əmin olduğunu deyib.

**❑ İlkin Muradov**
**Mingəçevir**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 185 (6213) 24 avqust 2015


Yusif Bağırzadə


Əli Əliyev

# Partiya sədrlərindən iddialı açıqlamalar

## **Yusif Bağırzadə:** “Heç bir partiya ilə seçki mübarizəsindən çəkinmirik”
## **Əli Əliyev:** “Avqustun sonu, sentyabrın əvvəlində seçimimiz qətiləşəcək”

**Bir sıra partiya sədrlərinin hansı dairədən namizəd olacaqlarını hələ də açıqlamaması və müəyyən etməməsinin onların hakim partiyanın siyahısını açıqlamasını gözləməsi ilə bağlı olduğu ehtimal edilir. AMİP sədri Yusif Bağırzadə və Vətəndaş İnkişaf Partiyasının sədri Əli Əliyevlə əlaqə saxlayıb onların da hansı dairədən namizəd olacağını açıqlamayan partiya sədrlərindən olduğunu xatırlatdıq.**

Hər iki partiya sədrinə “Sizlər YAP-ın siyahısını gözləyirsiniz, ona görə namizədliyinizin hansı dairədən olacağını açıqlamamsınız, rəqibinizin hakimiyyətdən kim olması seçiminizə təsir edəcəkmi” suallarını ünvanladıq.

Yusif Bağırzadə belə bir yanaşmanı qətiyyən qəbul etmədiyini bildirdi: “Başqa partiyaların sədrlərindən kimlərsə iqtidarın siyahısını gözləyirsə, məhz buna görə seçki dairəsini müəyyənləşdirməyibsə, bunu yanlış taktika sayıram. Şəxsən mən hansı dairədən namizədliyimi verəcəyimi dəqiqləşdirmişəm və partiyamızın deputatlığa namizədləri siyahısında adımın qarşısında həmin dairəni, yəni 38 saylı Nizami (Gəncə) seçki dairəsini qeyd etmişəm. Mənim üçün hakim partiyanın siyahısında həmin dairədən kimin namizəd olması rəqib kimi maraqlı olsa da dairəmi dəyişməyim, fikrimdən daşınmağım üçün səbəb ola bilməz. Siyasi partiya heç bir seçki blokunda iştirak etmirsə, onun namizədlərini digər partiyaların hansı dairədən kimi namizəd irəli sürməsi ilə uzlaşdırması gərək deyil. Yaxın günlərdə AMİP-in deputatlığa namizədlər siyahısı elan ediləcək. Siyahını yekunlaşdırmaq üzrəyik. Biz seçki mübarizəsindən çəkinmirik. AMİP 2010-cu il parlament seçkilərinə təklikdə qatıldı. Hakim Yeni Azərbaycan Partiyasından sonra seçkiyə təkbaşına qatılıb ən çox namizədlə iştirak edən partiya məhz AMİP idi. Seçkilər saxtalaşdırıldığı üçün namizədlərimizin qələbəsini legitimləşdirə bilmədik. İndi də heç bir partiya ilə seçki mübarizəsindən çəkinmirik. Biz güclü, təcrübəli partiyayıq və AMİP 2015-ci il seçkilərindən parlamentə düşən partiya olacaq”.

Əli Əliyev isə bildirdi ki, onun bu mövqeyi siyasi reallıqlar və təcrübədən qaynaqlanır: “Başqalarının ləngliyinin səbəbini deyə bilmərəm, lakin mənim gözləməmin bir neçə səbəbi var. Bunların sırasında həlledici olmasa da, hakim partiyanın siyahısının açıqlanmasının da gözləntisi yer almamış deyil. Belə ki, mövcud qanunvericilik və seçki vərdişləri hakimiyyətin imkanlarını hüdudsuz həddə çatdırıb. İstənilən namizədi uduzdurmaq üçün ”yollar" çoxdur. Bu baxımdan YAP-ın vazkeçilməz namizədləri ilə toqquşmaq belə şərtlər daxilində, fikrimcə, düz deyil. Üstəgəl, müxalifətin də ciddi fiqurları ilə narazı elektoral bazanı dairə üzrə bölmək istəməzdim. Belə bölgü baş verdikdə istənilən iqtidar namizədinin şansları yüksəlir. Lakin tamam qeyri-müəyyənliyin hökm sürdüyünü də iddia edənlər yanılırlar. Mənim üçün seçki arealı müəyyən qədər konturlara malikdir. Mərkəzi qərargahda olmağım zərurətimi nəzərə aldıqda Bakı şəhərindən namizədliyimi verəcəyim aydındır. Bir neçə prioritet də mövcuddur: 15 saylı birinci Yasamal seçki dairəsindən 2010-cu ildə namizəd olmuşam. Hesab edirəm ki, nəticəmiz də yüksək olub. O dairə yenidən iştirak üçün çox əlverişlidir. 18 saylı Nərimanov-Nizami seçki dairəsi 2005-ci ildə seçkini udduğum dairədir. Təəssüflər olsun ki, o zaman tamamilə saxta şəkildə hakimiyyət o dairəni Cəmil Həsənliyə peşkəş etdi. O ərazi mənim doğulduğum, məktəbdə oxuyub böyüdüyüm ərazidir".

VİP sədri qeyd etdi ki, daha iki dairə paralel şəkildə öyrənilir: “Yəqin avqust ayının son günlərində, bəlkə də sentyabrın əvvəlində seçimimiz qətiləşəcək. Ümumilikdə isə normal şərtlər daxilində heç kəslə rəqabətdən çəkinmirik. İstənilən ədalətli seçkidə ən ciddi rəqiblərlə üzbəüz gəlməyə hazırıq. Seçkilərdə qalib gəlmə ənənəsi bizim partiyanın-VİP-in xarakterik keyfiyyətidir”.

❑ **Etibar SEYİDAĞA**


Elton Məmmədov


Ziya Məmmədov

# Ziya Məmmədovun qardaşının aşağıladığı partiyalardan cavab gəldi

## Elton Məmmədovun Müsavat və AXCP haqda fikirləri qalmaqal yaratdı; **Gülağa Aslanlı:** “Cəsarəti varsa…”

**Nəqliyyat naziri Ziya Məmmədovun qardaşı, Milli Məclisin deputatı Elton Məmmədov Müsavat və AXCP partiyalarının ünvanına təhqiramiz ifadələr səsləndirib. O, hər iki qurumu küçə partiyası adlandırıb. Nazir qardaşının fikirləri hər iki partiya daxilində ciddi narazılıqla qarşılanıb.**
**E.Məmmədovun əsas narazılıq yaradan fikirləri bunlardır. Sitat: “AXCP və Müsavat bitmiş, özünə hörmət etməyən şəxslərin rəhbərlik etdiyi küçə partiyalarıdır.**


Gülağa Aslanlı

Siyasi partiya o zaman güclü olar ki, onun ətrafında sosial bazası olsun. Minlərlə tərəfdarı olsun, üzvlər arasında partiyaya inam olsun. Başqa sözlə desək, ideoloji həmrəylik olmalıdır. Yox, əgər bir partiyanın rəhbəri partiyaya, üzvlərə gəlir mənbəyi kimi baxırsa, onun sonu belə də olmalıdır. Mənim üçün, elə cəmiyyət üçün də bu partiyalar çoxdan bitib”.

Müsavat Partiyasının İcra Aparatının rəhbəri Gülağa Aslanlı “Yeni Müsavat”a açıqlamasında deputatın fikirlərinə kəskin reaksiya verdi: “İqtidar, yaxud hər hansı bir partiyanın nümayəndəsi olsun, digər qurumlar barəsində təhqiramiz ifadələr işlətməsi qəbul olunan deyil, heç bir normaya uyğun deyil. Bunu deputat söyləmiş olursa, bu, daha pis tendensiyadan xəbər verir. Həmin deputatın daha yaxşı olar ki, hakimiyyətin nöqsanlarını göstərməyə cəsarəti çatsın. Son zamanlarda baş vermiş jurnalistin və polis bölməsində insanın öldürülməsi, buna etiraz edən vətəndaşların döyülməsinə cəsarəti varsa, münasibət bildirsin. Onda görünər ki, hansı partiya kimlər tərəfindən idarə olunur, yaxud hansı partiyanın rəhbərinin xalq arasındakı hörməti nə qədərdir. Nazirin qardaşı olmasından asılı olmayaraq, hakimiyyətin yanında olanlar daim başqaları barəsində bu cür aşağılayıcı ifadələr işlədilir. Bu da ümumiyyətlə, yol verilən hal deyil. Bu, sifariş də ola bilər, insanın təfəkküründən asılı da ola bilər. Bütün hallarda düzgün deyil. Bu kimi hallar ölkə daxilində iqtidar-müxalifət münasibətlərinin daha da gərginləşməsinə səbəb olan hallardır. Belə fikirlər bu insanların nə qədər geridə qaldıqlarını göstərir. Belə insanlar bir mərkəzdən idarə olunurlar. İfadələr işlədəndə elə danışırlar ki, konkret ad çəkmirlər. Beləliklə, bunun məhkəmə perspektivi olmur. Dəfələrlə belə hallar olub. Bunun məhkəmə perspektivini görmürəm. Məsələ ilə daha yaxından tanış olandan sonra hüquqşünaslar ilə məsləhətləşəcəyik”.

AXCP də bu məsələyə “Azadlıq” qəzetində ayırdığı geniş məqalə ilə toxunub. Bu cür fikirlərin nazir qardaşının yenidən deputat olmaq istəyindən doğduğu vurğulanıb: “Qarşıdan parlament seçkiləri gəlir. Mandat qazanmaq üçün müxalifəti söymək lazımdır. Amma baxın kim Azərbaycana müstəqillik bəxş etmiş bir təşkilat haqqında aşağılayıcı fikirlər işlədir. Bu adam deputat olana qədər toylarda tamadalıqla məşğul olub. Bir qardaşı Loğman Məmmədov dəfələrlə həbs olunub, residivist kimi tanınır. Başqa bir qardaşı Nəriman Məmmədovun adı Qusarda namus üstündə baş verən qətldə hallanır. Digər qardaşı Ziya Məmmədov və oğlu Anar Məmmədov haqqında mətbuatda nələrin yazıldığını təkrarlamağa ehtiyac yoxdur. Öz oğlunun avtoşluğu və jurnalist döydürməsi barədə də çox yazılıb. Zənnimizcə, əlavə şərhə ehtiyac yoxdur”.

❑ **Cavanşir ABBASLI**






Xələddin İsgəndərov

# Küləyə sovrulan milyonlar

## Xələddin İsgəndərovun təmtəraqlı təpələri sökülür

**Binəqədi Rayon İcra Hakimiyyətinin Bakı-Sumqayıt magistral yolunun kənarında saldığı təmtəraqlı təpələr sökülür. Söküntü işlərinə dünən başlanılıb. Artıq 200 metrə yaxın ərazi sökülüb.**

Adıçəkilən ərazidə olub milyonlarla manat vəsait hesabına başa gələn bu yaşıllığın sökülməsinin səbəbləri ilə maraqlandıq. Qeyd edək ki, ərazidə ağır texnikalar işləyirdi. Söküntü işlərinə “Avtovağzal” istiqamətində başlanılıb.

Ərazidə icra hakimiyyətinin nümayəndələri olmadığından söküntü işləri aparan Faiq adlı şəxslə həmsöhbət olduq. Qazıntı işi aparan şəxs bildirdi ki, bu təpələrin yerində metronun “Avtovağzal” stansiyasının keçidi olacaq: “Təqribən 200 metrə yaxın ərazini sökəcəyik. Bu təpələrin yerində metro keçidi olacaq. Burada dayanacaqlar yaradılacaq. Sakinlər avtovağzal metrosuna keçidlər vasitəsi ilə keçəcəklər. Yalnız keçid üçün nəzərdə tutulan ərazini sökəcəyik”.

Təpələrin söküntüsü zamanı ehtiyatsızlığa yol verildiyindən yol kənarında yerləşən ağaclara da ziyan dəyib. Metro keçidi üçün yolun digər tərəfində də iş aparılır. Orada da ağaclar məhv edilib, bir çoxu torpağın altında qalıb.

Söküntü işləri səbəbindən magistral yolun bir hissəsinin qapadılması nəqliyyatın hərəkətinə də mane olub. Yolda tıxac yarandığından avtomobillərin hərəkətinin intensivliyi azalıb. Bundan əlavə, körpünün üzərindəki avtobus dayanacağı ləğv edildiyindən xəbərdar olmayan sərnişinlər orada gözləməli olublar. Binəqədi bələdiyyəsinin xəbərdarlıq lövhəsi vurulsa da, vətəndaşlar yolu bağlayan bardyürün üzərindən keçməklə dayanacağa gəlirlər.





❑ **Məğrur SALMANOV**
**Fotolar müəllifindir**

# Keçmiş siyasi məhbus AXCP-dən istefa verdi

## Rahib Hacıyev Razi Nurullayevi dəstəklədiyini bəyan etdi; sabiq siyasi məhbusdan şok açıqlamalar...

**AXCP-də istefalar səngimək bilmir. Partiya sədri Əli Kərimlinin keçmiş müavini Razi Nurullayevin yeni təşkilat yaratmasından və AXCP adına iddialı olmasını açıqlayandan sonra onun tərəfinə keçənlərin sayı günbəgün artmaqdadır. Əsasən də qurumun öncül şəxsləri istefa verirlər.**


Rahib Hacıyev

Bu arada partiyanın keçmiş gənc siyasi məhbusu, Suraxanı şöbəsinin üzvü Rahib Hacıyev istefa verərək, Razi Nurullayevi dəstəklədiyini bəyan edib. "Yeni Müsavat"a açıqlamasında o, isfefasının səbəbinə aydınlıq gətirdi: "2013-cü ilin iyulunda həbs edildim. Sonralar prezidentə müraciətim əsasında azadlığa çıxdım. AXCP-nin Suraxanı şöbəsinin üzvüyəm. Əfv ərizəsi yazdığıma görə, partiyadan çıxarıldığımı düşünürdüm. Amma maraqlananda dedilər ki, partiya üzvüsən. Azadlığa çıxandan iki gün sonra cəbhəçilərlə görüşdüm. Əsas narahatçılığım bu idi ki, mənə münasibətləri necə olacaq. Salam verən kimi, dedilər ki, qəzetpulu ver. Həbsxanada böyük əziyyət çəkmişəm. Hər ay beş dəfə qəzet pulu vermişəm. Şəxsən pulları təşkilatda özüm toplayırdım. Məni Suraxanı təşkilatında müavin təyin etmişdilər. İnanın ki, nişan üzüyümü belə satmışam. Həbsdə olduğum müddətdə bir cəbhəçi belə yanıma gəlmədi. Demokratiyadan danışırıq. Amma hazırda AXCP-də bu ənənə öldürülüb. Yerini yerlibazlıq, şəxsiyyətəpərəstlik tutub. Partiya tamam monopoliyaya çevrilib. Bu proseslərin başında partiya sədri dayanır. Həbsdən çıxdıqdan sonra dolanışıq çox çətin idi. Partiyanın idarə heyətinin iki üzvünə müraciət etdim ki, mənə iş tapmaqda kömək edin. Ən azından qəzetdə iş verəcəklərini düşünürdüm. Amma heç bir kömək etmədilər. Fikir verirəm ki, ancaq özlərini düşünürlər. Hansı üzvün başına nə gəlirsə gəlsin, veclərinə deyil. Partiyada gənclərimiz istəyirlər ki, demokratik ənənə yaratsınlar. Bu ənənəni yaşatmaq üçün mübarizə aparırlar. Artıq gündən-günə bu fikirdə olanların sayı durmadan artır. Amma yaşlı nəsil onlara imkan vermir. Diktatura əleyhinə danışırlar. Amma mən deyərdim ki, ən böyük diktatura AXCP rəhbərliyidir".

R.Hacıyev son günlərdə partiyada artan istefalara da toxundu: "Əsasən, diktatura, yerlipərəstlik, haqsızlıqla bağlıdır. Özümün əlaqəm var. Bu cür halları gözlərimlə görürəm. Ona görə də hamı partiyadan gedir. İnsanı bu cür hallar incidir. Bizlər demokratiya uğrunda mübarizə aparırıq. Amma demokratiya təmsil olunduğumuz partiyada boğulur. Konkret olaraq, partiya rəhbəri Əli Kərimlinin yürütdüyü siyasətə etiraz olaraq istefa verirəm. Bu haqsızlıqların bir sonu olmalıdır. Amma görürəm ki, bu cür hallar AXCP-də günü-gündən artır. 2001-ci ildən partiyanın üzvüyəm. Son 4 ildə AXCP üzvü olmağıma zərrə qədər peşman olmamışam. Orada yaxşı dostlarım olub. O, dostlarla bu dəqiqə bir yerdəyəm. Ayrılıb təşkilat yaradıblar. Yenə də onlarla birlikdəyəm. Mətbuat vasitəsilə AXCP-də qalan digər şəxslərə müraciət edirəm ki, ayılın, orada keçirdiyiniz hər saniyə sizlərə ziyandır. Nə qədər gec deyil, addımınızı atın. Sonra peşman olacaqsınız. Düşünürəm ki, 4 il istifadə olunan şəxslərdən biri də mənəm. Mən həbsxanada olanda, Əli bəyin oğlu həbs olunmuşdu. Prezident seçkiləri ərəfəsində. 30 sutka həbs almışdı. Bu müddət ərzində hər gün onun güclü təbliğatı gedirdi. Amma mən həbs olunanda, 5 ildən 12 ilə qədər həbs gözləyirdim. Bir dəfə də olsun ki, yada salınmadım. Öz xeyirləri üçün insanlardan canlı əşya kimi istifadə edirlər. Limit bitəndə isə dərhal kənara atırlar".

Sabiq cəbhəçi siyasi məhbus gələcək siyasi fəaliyyətindən də danışdı: "Razi bəyin yanındayam. Bu andan etibarən onun tərəfinə keçirəm. Artıq bu gündən AXCP üzvü deyiləm".

❑ **Cavanşir ABBASLI**

# Müxalifət partiyaları üzvlərinin statistikasını aparırmı...

## AXCP-dən istefa verən əməkdar müəllimin dedikləri bir çox həqiqətləri üzə çıxardı; Müsavatın təşkilat sədrləri məsələyə münasibət bildirdilər

**Azərbaycanda müxalifət partiyalarının üzvləri ilə bağlı qeyri-müəyyənlik müşahidə olunur. Bir sıra hallarda məlum olur ki, siyasi partiyalar üzvlərinin sayını şişirtməklə məşğuldurlar. Sanki bununla digər qurumlar üzərində, eləcə də, cəmiyyətə öz güclərini nümayiş etdirmək istəyirlər.**

Bu məsələ yenidən AXCP-nin Gəncə şöbəsinin üzvü, əməkdar müəllim Sabir Məmmədovun istefası ilə bağlı "Yeni Müsavat"a verdiyi açıqlamasında səsləndirdiyi fikirlərdən sonra gündəmə gəldi. O bildirmişdi ki, AXCP-nin Gəncə şöbəsində 750 üzv olduğu deyilsə də, ortada yalnız iki-üç nəfər var: "Hansı rayonu yoxlasalar, görəcəklər ki, bir, ya iki üzvləri var. Kurator olaraq, Gəncənin sədrinə dedim ki, nə qədər üzvünüz var. 750 olduğunu bildirdi. Bildirdim ki, 700 qalsın qıraqda, mənə 50 nəfərin adını ver. İnanırsınız ki, iki nəfər belə adam çıxara bilmədi. Yarım milyonluq Gəncədə faktiki olaraq iki-üç cəbhəçi var. Partiya yalançı şəxslərlə dolub".

Bu fikirlərdəki "partiya yalançı şəxslərlə dolub" cümləsi də diqqət çəkir. Siyasi qurumların bir taktikası da üzvlərinin sayını hansı yollarla olursa olsun artırmaqdır. Bu yolla müxalifət nəyə nail olmaq istəyir, hələ də məlum deyil.

Nəzərə çatdıraq ki, 1998-2005-ci illərə qədər müxalifət partiyalarına rəsmi üzv olanların sayı kifayət qədər idi. Lakin onların əksəri artıq partiyanı tərk ediblər. Bununla belə partiyalar 2005-ci illərdəki siyahılara "stavka" edirlər. Real olaraq üzvlərinin statistikasını aparmırlar.

Müxalifət partiyalarının rayon təşkilatlarının son durumu ilə maraqlandıq. Müsavatın Masallı təşkilatının sədri Xasay Səfəroğlu təkcə üzvlərin deyil, eyni zamanda tərəfdarlarının sayının artırılması istiqamətində də fəaliyyət göstərdiklərini söylədi: "Müsavat Partiyasının Masallı rayon təşkilatı olaraq, fəaliyyətimizi nizamnamə çərçivəsində davam etdiririk. Ötən il qaydaya uyğun olaraq konfransımızı keçirdik. Seçki ilidir, siyasi partiyanın aynası seçkilərdir. Söz yox, bu gün Azərbaycanda bəlli səbəblərdən seçki mühiti yoxdur, şərtlər çox ağırdır. Lakin buna baxmayaraq, hazırlığımızı davam etdiririk. Toplanmağımızda ciddi problemlər var. Qərargahın olmaması çətinliklər yaradır. Çox vaxt evlər, çayxanalarda toplanırıq. İşimizi təkcə rəsmi üzvlərimizlə aparmırıq. Müsavat Partiyasında təəssübkeşlik forması da mövcuddur. Tərəfdarlarımızı müəyyənləşdiririk, onların köməyindən istifadə etməyə çalışırıq. Bu qədər maneələrə, insanlarda yaradılmağa cəhd edilən ruh düşkünlüyünə baxmayaraq, Müsavat Partiyasının potensialını Masallıda normal hesab etmək olar. Təşkilatın Şurası, idarə heyəti normal səviyyədə fəaliyyət göstərir. Üzvlərimizin durumu ilə bağlı, əlbəttə, vaxtaşırı dəqiqləşdirmələr və yeni üzvlərin cəlb olunması ilə bağlı işlər aparılır".

Müsavatın Mingəçevir təşkilatının sədri Nurəddin Rüstəmli bunları dedi: "İlk dəfə 2013-cü il prezident seçkilərindən öncə mənim təşəbbüsümlə bu məsələ qaldırıldı. Siyahı üzrə 150 nəfərin hər biri ilə danışıqlar apardıq, məlum oldu ki, bir qismi yorulub, digərləri iş yerlərini itirmək istəmir. Başqa bir qismi isə hansısa maraqlarının təmin edilməsi üçün gəlmişdi. Seçkidə hamı iştirak etməlidir tələbini qoyduq və prinsipial mövqe tələb etdik. Bu zaman aydın oldu ki, yeni gələnlərlə birgə 64 nəfər həm mövcud ağır şərtlərlə partiyada qalıb fəaliyyət göstərmək, həm də seçkidə aktiv işləmək istəyir. Və biz real olaraq, bu insanları həm qiymətləndirdik, həm də ciddi seçki kompaniyası apardıq. Qeyd edim ki, o seçkilərdə Müsavat 70 faiz iştirak etdi. Tam məsuliyyətimlə deyirəm ki, Cəmil Həsənlinin seçki kompaniyasını əsasən Müsavat Partiyası təşkil edib. Digərləri Müsavat olmadan heç vaxt təkbaşına seçki kampaniyası təşkil etmək gücündə olmayıb. Facebook fəalı olmaq asandır. Real mübarizədə heç vaxt yanımızda digərlərini görmədik, həmişə kölgəmizdə gördük. Hal-hazırda da 50-70 nəfərlə istənilən seçkiyə qatıla və əzmlə mübarizə apara bilərik. Mənim sədrliyim dönəmində pripiska mümkün deyil".

❑ **Cavanşir ABBASLI**

# "Naşı əməliyyatçıların işi"



**Xalid KAZIMLI**

**Təxminən 15 il öncəydi, Səbayel rayon Polis İdarəsinin hansısa bölməsinin əməkdaşlarının əlindən xəta çıxmışdı: toydan çıxdıqdan sonra xanımı ilə küçədə mübahisə edə-edə evinə gədən İlqar adlı bir gənci aparıb bölmədə döymüşdülər və adam ölmüşdü. Ölkə mətbuatı bundan yazırdı. Müsahibimiz bir sabiq polis rəisi idi.**

Öz zamanında bacardığı qədər yaxşı işləməyə çalışmış bu şəxs heç nədən çəkinməyərək müxalifətə qoşulmuşdu və vaxtaşırı qəzetlərdə ekspert şərhləri ilə çıxış edirdi. Münasibətimiz yaxşıydı. "Bölmədə işgəncə" məsələsi aktuallaşanda ondan soruşduq ki, şübhəli şəxs qismində saxlanılanların döyülməməsi mümkün deyilmi, onlardan ifadəni təzyiqsiz, qanunlar çərçivəsində almaq olmazmı.

Sabiq rəis bir az düşündü və təxminən belə cavab verdi: "Biz buna "şübhəli şəxslə profilaktik tədbirlər aparmaq" deyirik".

Sonra o, məsələnin incəliklərini xırdaladı və dedi: "Təsəvvür edin ki, qarşınızdakının qətl törətdiyini bilirsiz, amma yatıb-çıxmış adamdır, təcrübəlidir, izi elə itirib ki, onu axtarıb tapmaq aylarla vaxt apara bilər, ona görə də məcbursunuz onun üzərində profilaktiki iş aparasız ki, dili açılsın. Bölməyə yeni düşənlərlə asandır, qorxuzan kimi danışırlar, ya günahlarını etiraf edirlər, ya da əsl caninin adını çəkirlər, amma təcrübəli residivistlərlə gərək bir az çox işləyək".

"Çox işləyəndə də ölürlər axı", -dedim. Sabiq rəis halını pozmadı: "Bu da naşı əməliyyatçıların işidir. Təcrübəli əməliyyatçılar caniləri bülbül kimi oxudurlar, heç kəs də ölüb-eləmir".

"Yəni fiziki təzyiq olmadan hansısa cinayətin üstünün açılması mümkün deyil?". Sabiq rəis o illərdə də yayğın olan arqumentə əl atdı: "Bütün ölkələrdə belədir. Ağlınız bəzi filmlərə getməsin. Amerikada da canilərin başını sığallamırlar. Əgər onlarla azca mülayim davransaq, birindən bir kəlmə söz qoparda bilmərik".

Bu, dolayısıyla işgəncəyə haqq qazandırmaq idi. Polkovnik içindən çıxıb gəldiyi reallıqlardan danışırdı. Əməkdaşlarımız baxışdılar ki, gördünüzmü, sabiq rəis poqon yoldaşlarının tərəfini tutdu, halbuki dünənə qədər onlardan çox narazılıq edirdi.

Ondan sonra da bu sayaq hallar vaxtaşırı baş verirdi. Görünür, sovet dövründən, hətta ondan da qat-qat əvvəldən miras qalan "etiraf etdirmə" ənənəsi bu gün də vazkeçilməzdir.

İndi də deyə bilərlər ki, bənzər xəbərlər tərifli ölkələrdən də gəlir. Artıq Amerikada cinayət törətməkdə şübhəli olan şəxsləri polis bölməsinə aparıb öldürmürlər, elə küçədəcə güllələyirlər. Az qala hər gün belə xəbərlər yayılır. Bu davranışa görə ABŞ-da az qala hər həftə iğtişaşalar baş verir. Xüsusilə də ağdərili polislərin qaradərili caniləri güllələməsi kütləvi aksiyalara səbəb olur.

Bununla belə, bütün dünyada yazılı qanunlar, qüvvəyə minmiş beynəlxalq konvensiyalar var, onların müddəalarına görə, istintaqa cəlb edilmiş şəxslərə işgəncə vermək, fiziki, psixoloji təzyiq göstərmək, şəxsiyyətlərini və ləyaqətlərini alçaldan hərəkətlərə yol vermək olmaz. Bu qanunlarda heç bir əlyeri, istisna məqamı da yoxdur ki, cinayət üstündə tutulanlara işgəncə vermək olar, amma siyasi motivlərlə tutulanlara olmaz.

Hərçənd 1998, 2000, 2003, 2005, 2002-ci illərdə siyasi motivlərlə həbs olunan şəxslərlə amansız davranıldığı, onlara dözülməz işgəncələr verildiyi halları məlumdur. Hətta "işgəncə kralı" kimi şöhrət qazanananlar vardı.

Mingəçevirdə baş verən kütləvi aksiyanın, vətəndaşlarla polis qüvvələrinin arasındakı qarşıdurmanın başlıca səbəbi də budur. Etiraz edənlər əmindir ki, Bəhruz adlı gənci bölmədə döyüb öldürüb, sonra da 3-cü mərtəbədən ataraq olaya intihar süsü veriblər.

Ya belədir, ya belə deyil, fərq etməz, gənc adam bölmədə ölüb. Hətta o, polis bölməsində intihar edibsə belə, demək, onu intihar həddinə çatdıranlar olub. Bu işdə rolu olanların cəzalandırılması şərtdir.

Qoy əməliyyatçı polislərimiz özlərini Türkiyə telekanalı yayımlanan məşhur "Arka sokaklar" serialındakı komissar Məsud kimi aparmasınlar, qabaqlarına keçəni şillə-təpiyin altına salmasınlar. Dörd divar arasının zəhmi ağırdır, ilk dəqiqələrdə danışmayanlar bir saatdan, bir gündən sonra onsuz da danışacaqlar.

YENİ MÜSAVAT
N 185 (6213) 24 avqust 2015



# Bir ölümün etimologiyası

Zamin HACI
zaminhaci@gmail.com

"Kitabxananın bütün kitabları əhatə edəcəyi elan olunanda hər kəsi sonsuz sevinc bürüdü. Hər kəs özünü gizli və toxunulmamış xəzinənin yiyəsi sandı. Nə şəxsi, nə dünyəvi - elə bir problem yox idi ki, onun inandırıcı həlli altıbucaqlıların hansındasa olmasın"

*(Xorxe Luis Borxes, "Babil kitabxanası")*

**Mingəçevirdə 1 nəfərin polis idarəsində qəfil və sirli şəkildə ölməsi, ardıyca etiraz aksiyaları, polisin, daxili qoşunların şəhərdə əməliyyatları haqda ola bilsin məlumatınız vardır. Ona görə "ola bilsin" yazıram ki, hazırda Azərbaycan vətəndaşının ölkəmizdəki hadisələr haqda məlumat almaq imkanları sıfıra yaxındır. 1-2 qəzet qalıb, onlar da hər yerə çatmır. Telekanalizasiyalar Mingəçevir hadisələrinə manıslardan, misal üçün, Tolikdən münasibət öyrənəsi deyillər. Qalır internet. Bir az ordan nəsə öyrənmək olar.**

Hadisə necə olub, Bəhruz Quliyevi polisdə döyüb öldürüblər, yoxsa özünü pəncərədən atıb - bu haqda əlavə şərh vermək istəmirəm. Lətifədə deyilən kimi, istintaq gedir. Yox, konkret elə bir lətifə bilmirəm. Ümumən yazıram. Ancaq mən Mingəçevir hadisələri haqda xəbərləri oxuyanda üzləşdiyim bir-iki göz aldatması, bundan sonra isə sözlər üzərində düşüncələrimi bölüşmək istərdim.

Məsələn, Mingəçevir şəhərinin adı, bəlkə inanmayacaqsınız, gözümə DİNgəçevir kimi görünmüşdü. Bəlkə xəbərin içində DİN abbreviaturası çox idi, o üzdən? Freydin yeri məlum. Sonra polisdə həlak olan Bəhruz bəyin atasının adı Dilsuzu çaşıb "Dilsiz" kimi oxudum. Elə bil hansısa dilsiz-ağızsız, yazıq vətəndaşımızın övladını öldürüblər. Hərçənd, Dilsuz bəy oğlunun ölümündə günahı olanların cəzalandırılması üçün heç də sakit dayanmır, bacardığı qədər mübarizə aparır.

Bu yanlışlıqlar sevmədiyim jurnalist üslubunda bir az da uzağa getməyimə səbəb oldu. Örnək üçün, mərhumun adının mənasını düşündüm. Bəhruz. Farsa "xoş günlər" deməkdir. Əcəb xoş günlərdir. Düşmənə arzulamazsan.

Ölüm hadisəsinə görə bir polis zabiti işdən çıxarılıb, hətta deyilənə görə həbs edilib. Bu "suç keçisi"nin ismi-şərifi də mənalıdır: Şahlar Şahlarzadə. Şah rejimində yaşadığımızı gözəl ifadə edir. Bir deyil, beş deyil. Gör bu adamın adı və soyadı nə qədər balaca-balaca şahlarımızı göstərməkdədir. Hətta bunu universitetə qəbul imtahanında testə soxmaq olar: "Şahlar Şahlarzadə adında monarxiya sistemimizin, sülalənin neçə dönəmi özünü əks etdirmişdir. A) 3, B) 7..."

Nə olub, ay camaat? Bu qədər şahsevənlik çöküntüləri sizin canınızda hansı xəstəlikdən qalmışdır?

Davam edək, pis ilişmişik. Mingəçevir Polis Şöbəsinin rəisi Bədəlov soyadlı bir polkovnikdir. Deyirlər bu adam hərbi prokurorla qudadır, ona görə 11 ildir dəyib-toxunan yoxdur. İndi bunun soyadının mənasına diqqət edək: "bədəl" sözü də fars sözüdür, anlamı "əvəz" deməkdir. Təsəvvür edin, adamı 11 ildir əvəz eləmirlər, kresloya kök atıb, hətta köklər kreslodan keçib yerə girib, amma bunun soyadının mənası "əvəz" deməkdir. Elə bil etimologiya (sözlərin yaranması, tarixi, əsl mənası haqda elmdir) ilahəsi bizimlə məzələnmək istəmişdir.

Kədərli söz oyunlarına dəxli olmayan başqa əlaqələr də var. Misal üçün, rejimin hüquqi nihilizminə tərif vuranlardan biri Əli Hüseynlidir, bu adam 49 saylı Yevlax-Mingəçevir dairəsindən deputatxanaya qoyulmuşdur. Elə Bəhruz Hacıyevin qətlindən cəmi bir gün qabaq Hüseynli intervü verib Leyla və Arif Yunusların həbsini "humanizmin təzahürü" adlandırmışdı. Bu qədər sinik şəxsiyyətdir. Həmin müsahibədə, həmçinin başqa açıqlamalarında da Hüseynli daim Qərb dövlətlərinə sataşır, onları insan haqlarını pozmaqda, Quantanamo zindanı saxlamaqda, nə bilim, Frankfurtda dilənçiyə pul verməməkdə qınayır. Bax, belə uzaqgörəndir - Mingəçevirdə öləni görmür, Amerikanı isə görür. Küçə keçəndə bunu görsəniz əlindən tutun, kanalizasiya çuxuruna, peyin çalasına-filana yıxılar. Yaxını pis görür.

# "Sürünən böhran" sərhədimizə yaxınlaşır



## Rusiyaya qarşı iqtisadi müharibədə "Azərbaycan cəbhəsi" - təhlükə

### Kremlə və onun potensial müttəfiqlərinə qarşı Qərbin bütün cəbhə boyu yeni hücum taktikasının pərdəarxası; "dava edən fillərin" ayağının altında "ot olmamaq" şansımız hələ ki qalır, əgər...

**ABŞ başda olmaqla Qərb Rusiyanı və onun yeni supermüttəfiqi Çini cəzalandırmaq üçün bu iki fövqəldövlətə qarşı iqtisadi (valyuta) müharibəsini genişləndirib. Son baş verənləri Qərbin əsas hədəfə çatmağı tezləşdirmək üçün hardasa təzə və kifayət qədər effektli və incə hücum taktikası da adlandırmaq olar.**

Artıq ilkin nəticələr ortadadır: dünya bazarında neftin qiyməti bir qədər də aşağı düşərək minimal (kritik) göstəriciyə yaxınlaşıb; Çin yuanı, xüsusilə də Rusiya rublu öz dəyərini xeyli itirib, rubl isə dollara nisbətdə sürətlə ucuzlaşaraq rekord həddə qərarlaşıb (70 rubl), Rusiyanın və Çinin iqtisadiyyatı yeni problemlərlə üzləşib, hətta iqtisadi geriləmənin əlamətləri özünü göstərməyə başlayıb.

***

Diqqətçəkicidir ki, ABŞ Rusiyanı həm də geosiyasi istiqamətlər üzrə zəifləmək üçün təqib etməkdədir. Söhbət öncəliklə postsovet məkanının iki mühüm məntəqəsi - Ukrayna və Azərbaycanın da daxil olduğu Güney Qafqazdan gedir. Aydındır ki, Rusiya iqtisadi-maliyyə probemlərinin məngənəsində nə qədər çox sıxılsa, bir o qədər onun hərbi alanda da güc-imkanı azalacaq. Rusiya isə, sirr deyil ki, xüsusən də Qafqazda hərbi cəhətdən möhkəmlənməyə, ABŞ-ı, NATO-nu qabaqlamağa, Qərbi və onun maraqlarını bölgədən sıxışdırmağa çalışır.

Elə bu həftə (avqustun 26-ı) NATO baş katibi Yens Stoltenberq ilk dəfə olaraq Gürcüstana səfərə gələcək və burada alyansın təlim mərkəzinin açılışına qatılacaq. Bu fakt alyansın bölgəmizə de-yure, rəsmən girməsi anlamını verir ki, bu da Moskvanı ciddi narahat edir. Keçən ay Bakı-Supsa neft kəmərinin Gürcüstandan keçən hissəsinin bir neçə kilometrinin separatçı Cənubi Osetiyadakı rus hərbçiləri tərəfindən ələ keçirilməsi də müstəsna olaraq bu prosesi durdurmağa, Qərbi hədələməyə hesablanmışdı.

Yeri gəlmişkən, ötən həftə rusiyalı ekspertlərdən biri belə fikir söyləmişdi ki, Putin Ukraynanı əslində uduzub və qonşu ölkəyə hərbi müdaxilə imkanlarını itirib. Onun qənaətincə, Rusiya-ABŞ (NATO) qarşıdurması Ukraynadan Qafqaza adlaya bilər, həm də o səbəbə ki, hərbi kampaniya üçün uzağı 1 ay - sentyabr ayı əlverişli ay hesab edilir ki, ondan sonra belə ehtimal sıfıra enəcək. Yəni Qərb hardsasa 30-35 gün də Rusiyanın başını özünə qata bilsə, Moskva nəinki Ukraynanı, bəlkə hələ Güney Qafqazı da unutmaq zorunda qalacaq.

Maraqlıdır ki, az sonra rusiyalı politoloqun fikrini ABŞ-ın kölgə kəşfiyyatı sayılan "Stratfor" analitik mərkəzinin ekspertləri də təsdiqlədilər.

***

Bu mənada Rusiyaya qarşı iqtisadi savaşın açılması və məhz bu fonda NATO baş katibinin Gürcüstana səfərə hazırlaşması təsadüfə bənzəmir və Qərbin, ABŞ-ın planlarının sinxronluğundan və ardıcıllığından xəbər verir. Bu, eyni zamanda, Güney Qafqaz, Ukrayna uğurunda amansız mübarizədə Kremlə sanballı bir güc nümayişidir.

Valyuta müharibəsi isə artıq nəinki Avrasiya İqtisadi Birliyi ideyasını, həmçinin Rusiyanın Çinlə ABŞ-a qarşı siyasi-iqtisadi tandem yaratmaq planlarını puç edib. İndi bu ölkələr, üstəgəl, qonşu və müttəfiq dövlətlər (Qazaxıstan, Qırğızıstan, Tacikistan, Belarus, Ermənistan, Vyetnam və s.) öz başlarına və milli valyutalarına çarə qılmaq, öz bazarlarını xilas eləmək barədə düşünürlər.

Yeri gəlmişkən, dünənədək "möcüzə" sayılan Çin iqtisadiyyatında da ciddi geriləmə başlayıb. Belə ki, ölkədə biznes-fəallıq son 6 il ərzində ən sürətli templərlə aşağı düşməkdədir. Musavat.com-un BBC-yə istinadən verdiyi məlumata görə, PMİ biznes aktivliyi indeksi 47.8-dən (iyul ayı) avqustda 47.1-ə enib ki, bu da 2009-cu ilin martından ən aşağı nəticədir.

İqtisadçı və maliyyə ekspertlərinə görə, göstəricinin 50%-dən aşağı olması iqtisadiyyatdakı tənəzzülün əlaməti sayılır. 6 aydan çoxdur ki, bu göstərici 50-ni keçmir. Təzə nəticələrin elan edilməsi investorları yenidən Çin səhmlərindən imtinaya vadar edib.

"Frans Presse" agentliyi sərmayəçilərin ovqatını panik adlandırıb. "Reuters" analitikləri isə ötən həftəni fond bazarları üçün ilin "ən pis həftə"si elan ediblər. Çin birjalarının ardınca Avropa və ABŞ-da da indekslər aşağı düşməyə başlayıb - özü ilə birgəz təbii ki, xammalın (neftin) qiymətlərini də aşağı aparmaqla.

Vəziyyətin ağırlığını Rusiya baş naziri Dmitri Medvedyev də etiraf edib. Baş nazir iki gün öncə rublun ABŞ dollarına nisbətdə rekord həddə ucuzlaşmasının əsas səbəbi kimi beynəlxalq sanksiyaları və xam neftin ucuzlaşmasını göstərib.

***

Göründüyü kimi, iqtisadi müharibədə Çin və Rusiya kimi nəhənglər də Qərb önündə, dollar önündə duruş gətirə bilmir, geri çəkilir. Bu da gerçək bazar qanunlarından, azad biznes rəqabətindən qaçan avtoritar rejimlərin belə müharibədə obyektiv səbəblərdən uğur qazanmaq şansının və potensialının olmaması ilə bağlıdır.

Deməli, qat-qat kiçik ölkə olan Azərbaycan iqtisadi müharibənin ağır nəticələrindən daha az sığortalanıb. Nəzərə alsaq ki, ciddi ekspertlər ən azı, yaxın iki ildə xam neftin qiymətinin 40-50 dollar arasında olacağını proqnoz ediblər, o zaman "neft iynəsi"ndən qurtula bilməyən ölkəmizdə də sosial-iqtisadi kataklizmlərin mümkünlüyü qulaqardı edilə bilməz.

Böyük ehtimalla, Azərbaycan iqtidarı da getdikcə kəskinləşən valyuta müharibəsinin ölkəmizə mümkün və ağır sosial-iqtisadi təsirlərinin artıq fərqindədir (Rusiyadakı əmək miqrantlarımızın geri dönməsi ehtimalını da bura əlavə edin) və o üzdən indidən cəmiyyətə yönəlik hansısa pozitiv addımlar atmaq, hətta "demokratik açılım" haqda götür-qoy etməkdədir. Hədəfz əlbəttə ki, toplumda illərdir yığılıb qalan və kumilyasiya olunan böyük neqativ enerjini, narazılığı azaltmaqdır.

Bu mənada Azərbaycan prezidenti İlham Əliyevin bir ayın içində ictimai rezonans doğurmuş iki kriminal hadisəyə (jurnalist Rasim Əliyevin ölümü və Mingəçevirdəki ötən bazar olayı) dərhal reaksiya verməsi və məmuriyyətin, oliqarxların deyil, faktiki surətdə ictimai rəyin yanında yer alması pozitiv gəlişmə sayılmaqla yanaşı, dolayısıyla sonuncu ehtimalın təsdiqi, hakimiyyətin ictimai rəyi saya salmağa başlamasının təzahürü hesab edilə bilər. Ardınca əgər hansısa ciddi kadr dəyişikliklərinin də şahidi olsaq, təəccüblənmərik.

Çünki artıq bir ildir bəşəriyyət tamam başqa bir dünyada yaşayır və reallığı ciddiyə almayan hökumətlər çox ağır bədəl ödəməli ola bilərlər. Bu xüsusda düşünmürük ki, hər iki halda prezidentin birbaşa müdaxiləsi qarşıdakı seçkilərlə bağlıdır. Hər halda seçki illərində indiyədək bənzər kriminal olaylar çox olub və hakimiyyətin zirvəsindən reaksiya gəlməyib.

***

Ötən həftəsonu ölkənin valyuta bazarında yaşanan panika göstərdi ki, situasiya təsəvvür edildiyindən qat-qat ciddidir və seçki məsələsi burada sonuncu rolu oynayır. Ən qorxulu perspektiv isə "dava edən fillərin" (ABŞ və Rusiya) ayağının altında "ot olmaq" aqibətidir. Hələ ki, bundan yayınmaq şansımız qalır.

Belə bir acınacaqlı aqibətdən, həmçinin, daxili sosial təlatümlərdən qaçmağın tək yolu ləngimədən iqtisadi-siyasi islahatların önünü açmaq, iqtisadi-biznes azadlıqlarını, nəhayət, bərqərar eləməkdir. Bundan ötrü isə öncəliklə yeni şərtlərə uyğun komanda qurmaq lazım gələcək.

❑ **Analitik xidmət**

**ABŞ-ın "kölgə kəşfiyyatı" sayılan "Stratfor" Analitik Mərkəzinin təhlilçiləri Rusiya-Qərb qarşıdurmasının Ukraynadan Qafqaza keçəcəyi ilə bağlı xəbərdarlıq ediblər. Təhqiqat müəllifləri hesab edirlər ki, 2008-ci ildəki "5 günlük müharibə"dən sonra Rusiya Ermənistanda hərbi mövcudluğunu gücləndirib və bu ölkədə güclü iqtisadi və siyasi mövqe əldə edib.**




# Politoloqdan şok açıqlama

## Rusiya və Qərb Azərbaycandakı parlament seçkilərinə hazırlaşır

"Ermənistanda, Abxaziya və Cənubi Osetiyada hərbi mövcudluq, Azərbaycanla isə təhlükəsizlik sahəsində əməkdaşlıq Rusiyanın regionda dominant xarici güc olmasını təmin edir" - qeyd edib analitiklər.

Bununla belə, "Stratfor" ekspertlərinə görə, Qərb Rusiyanın keçmiş sovet periferiyasında öz təsirini artırmasına imkan verməmək fikrində deyil: "Qərb ölkələri açıq şəkildə Kremlə anladıblar ki, onların dəstəyi Ukrayna ilə bitməyəcək. Qərb Mərkəzi və Şərqi Avropada hərbi bazalar qurmağa, habelə keçmiş sovet periferiyası ölkələrindən bir neçəsi ilə təhlükəsizlik sahəsində əməkdaşlığı genişləndirməyə başlayıb". Mərkəzin analitikləri bu xüsusda Qərblə Rusiya arasında yeni qarşıdurma nöqtəsinin məhz Qafqaz ola biləcəyini bir daha vurğulayıblar.


Natiq Miri

Politoloq Natiq Miri də hesab edir ki, Cənubi Qafqaz uğrunda Qərblə Rusiyanın qarşıdurmasının kəskinləşəcəyinin əlamətləri müşahidə olunur: "Bu qarşıdurma kəskinləşmək üzrədir. Bu daha çox Rusiyanın son vaxtlar davranışlarından və NATO-nun addımından da aydın görünür. NATO Rusiyanın Gürcüstandakı bütün təxribat və təzyiqlərinə rəğmən Cənubi Qafqaza gəlmək iddiasından vaz keçmədi. Strateji xarakter daşıyan NATO-nun təlim mərkəzinin Gürcüstanda yaradılması prosesini başa çatdırdı. Avqustun 26-27-də NATO baş katibinin Gürcüstana səfəri gözlənilir. Gürcüstanda həmin Təlim Mərkəzinin açılış mərasimi olacaq. Əslində bu planın gerçəkləşdirilməsi Rusiyanın yürütdüyü basqı siyasətinin qarşılığıdır və Rusiyanın basqı siyasətinin baş tutmadığının sübutudur. Rusiya təzyiqi təkcə Gürcüstana deyil, eyni zamanda Avroatlantik məkana qarşı edirdi. Rusiya Abxaziyanı və Cənubi Osetiyanı işğal etməklə mesaj verirdi ki, Rusiya NATO-nu Cənubi Qafqaza buraxmaq fikrində deyil. Rusiya hər vasitə ilə çalışırdı ki, NATO Gürcüstanda Təlim Mərkəzi yaratmaq planından imtina etsin. Lakin göründüyü ki, Qərb nəzərdə tutduğu planı gerçəkləşdirdi".

Ekspert qeyd etdi ki, Rusiyanın Cənubi Qafqazda Qərblə mübarizəsinin qızışdığını göstərən daha bir məqam Rusiyanın Abxaziyadan keçən və Ermənistanla Rusiyanı birləşdirən yeganə quru yolu olan dəmiryol xəttinin bərpa edilməsinə hazırlaşmasıdır. Rusiya bu dəmiryolunu bərpa etmək istiqamətində işə başlayıb. Məqsəd Cənubi Qafqaz bölgəsində möhkəmlənməkdir: "Gürcüstan siyasilərinin son vaxtlar Moskva səfərlərinin intensivləşməsi də göstərir ki, Rusiya Gürcüstanda 2016-cı ildə keçiriləcək parlament seçkilərində revanşa hazırlaşır. Nino Burcanadze hər dəfə Rusiyaya gedib qayıtdıqdan sonra Gürcüstanda hərbi və siyasi təxribatların sayı çoxalır. Eyni hadisələri biz Azərbaycanla da bağlı görürük. Rusiyaya bağlı olan generalların "Avrasiya Hərəkatı" yaratması, eyni zamanda Avrasiya İttifaqı ideyasını cəmiyyətə qəbul etdirmək istiqamətində media çalışmalarının artması, Rusiyanın Qəbələdə yeni modern bir RLS-in tikilməsi məsələsini ortaya atması və digər məsələlər göstərir ki, Rusiya Gürcüstanla paralel olaraq Azərbaycanda da nələrsə etmək istəyir. Rusiya Azərbaycanda da 2015-ci il parlament seçkilərinə hazırlaşır. Bütün bunlar göstərir ki, Rusiya Cənubi Qafqazı ABŞ-Qərbə təhvil vermək fikrində deyil. Qərb də Azərbaycanda parlament seçkilərinə hazırlaşır. Son vaxtlar ABŞ, Böyük Britaniya səfirliklərinin, ATƏT missiyasının Azərbaycanda müxalifət partiyaları ilə təmaslara başlaması təsadüfi deyil. Qərbin də Cənubi Qafqazdan əl çəkmək istəməməsi də müşahidə olunur ki, bu da qarşıdurmanın daha da kəskinləşəcəyinə şübhə yeri qoymur".

❑ Etibar SEYİDAĞA

# "Seçkidə bircə blok iştirak edir, o da "Azadlıq"dır"

## Partiya sədri blok davası etdi...

**"Hazırkı vəziyyət dəyişməsə, Azərbaycanda 1 noyabrda keçiriləcək parlament seçkilərində cəmi bir seçki bloku iştirak edəcək. Həmin blok isə "Azadlıq 2015" seçki blokudur". Bu barədə "Yeni Müsavat"a açıqlamsında blokun 8 təsisçisindən biri olan Azadlıq Partiyasının sədri Əhməd Oruc bildirib.**

Onun dediyinə görə, rəhbərlik etdiyi partiya üçün bu, həm həmin blokun təsisçilərindən biri olması, həm də blokun adının məhz "Azadlıq 2015" olması xüsusi əhəmiyyət daşıyır. Ə.Oruc bəyan edib ki, seçkidə cəmi bir seçki blokunun iştirak etməsinə baxmayaraq, bəzi şəxslərin yaratdıqları birliklər yanlış olaraq seçki bloku kimi təqdim olunur: "Bəllidir ki, ölkədə fəaliyyət göstərən partiyaların əksəriyyəti seçkidə iştirak edəcəklərini elan etsələr də, "Azadlıq 2015"dəki 8 partiyadan başqa bütün partiyalar seçkidə təkbaşına iştirak edirlər. 8 partiya "Azadlıq 2015" seçki bloku ilə gedir. Ehtimal edilirdi ki, ADP və Ümid Partiyası "Qarabağ" bloku olaraq qatılacaqlar. Keçən həftə rəsmən bəyan edildi ki, bu iki partiya ayrılıqda seçkiyə gedəcək və "Qarabağ" siyasi bloku da fəaliyyətini seçki bitənədək dayandırıb. Yəni onlar nəinki seçki bloku yarada bilmədilər, seçki məsələsi Qarabağ siyasi blokunun da sıradan çıxmasına səbəb oldu. Beləliklə, ortada tək blok olaraq "Azadlıq 2015" seçkiyə gedir, seçkiyə ciddi hazırlaşır. Bir neçə müsavatçı gəncin yenicə elan etdiyi "Ağ blok"u yanlış olaraq mediada seçki bloku kimi təqdim edirlər. Bu cür təqdimatı edənlərin və "Ağ blok"u yaradanların nəzərinə çatdırmaq istəyirəm ki, qanuna görə, seçki blokunu ancaq dövlət qeydiyyatından keçmiş siyasi partiyalar yarada bilər. Ayrı-ayrı fərdlərin, ictimai qurumların yaratdığı hansısa birlik seçki bloku ola bilməz, Mərkəzi Seçki Komissiyası onu seçki bloku kimi qeydə ala bilməz. Bu, Seçki Məcəlləsinin tələbidir. Təşkilat yaradıb adına blok sözünü əlavə etməklə cəmiyyətdə çaşqınlıq yaradırlar. İctimaiyyətdə çaşqınlıq yaratmağa ehtiyac yoxdur".


Əhməd Oruc

Partiya sədri tövsiyə etdi ki, seçki ilə bağlı hansısa təşkilatlar, birliklər, təşəbbüs qrupu yaradanlar zəhmət çəkib Seçki Məcəlləsini oxusunlar, siyasətdən azca anlayışları olsun, sonra o addımları atsınlar.

❑ E.SEYİDAĞA

# Avrasiya Birliyi yaranmamışdan çökür?



Hüseynbala SƏLİMOV

**Rusiya və Qazaxıstan valyutalarının yaşadığı aqibət neçə gündür ki, medianın diqqət mərkəzindədir. Onlar həm yeni siyasi və iqtisadi ittifaqın təşəbbüsçüsü, həm də neft ölkəsi kimi hamıya maraqlıdırlar...**

Avrasiya İttifaqı ilə maraqlananlar haqlı sual verirlər: bir birliyin nüvəsini belə böhranlı ölkələr təşkil edirsə ona inanmağa və ən başlıcası isə diqqət göstərməyə ehtiyac varmı?..

Neft ölkələrinin adamlarının da sualı haqlı görünür. Onlar da düşünür ki, görən bizim ölkəmizi belə bir aqibət gözləmir ki?..

Daha maraqlısı isə budur ki, bir neçə həftə bundan əvvəl Rusiyanın baş naziri ölkəsinin iqtisadiyyatının növbəti ildən dirçələcəyini demişdi. Amma bir-iki həftə sonra rus rublu dollara nisbətən rekord həddə ucuzlaşdı. Deməli, ölkənin iqtisadi sükanı heç də onun daxili tənzimləyicilərinin əlində deyil, ölkə iqtisadiyyatı xarici amillərə daha həssasdır.

ABŞ-ın özünün neft ehtiyatları ilə bağlı hesabatını açıqlamasından sonra demək olardı ki, daha neftin qiymətinə təsir edəcək amillər qalmayıb. Amma belə deyil. Qarşıda hələ İran da var, hansı ki, sanksiyaların götürücəyi təqdirdə özünün neft hasilatını iki dəfə artıracağını deyir. Ona görə D.Medvedevin vədlərinin dəyəri elə rus rublunun dəyəri qədər ola bilər - Rusiya iqtisadiyyatının sabit zolağa çıxması hələ yaxın dövrün hadisəsi deyil. Ona görə ki, dünya birjalarında neftin qiymətinin rəqsləri hələ çox davam edəcək...

Amma düşünürük ki, Qazaxıstanın öz valyutasının qiymətini saxlamağa yönəlmiş səylərinə "stop" deməsi onun iqtisadiyyatı üçün daha düzgün və bir az da məntiqli addım idi - qoy, bazar özü hər şeyi tənzimləsin...

Prinsipcə, Rusiya da bu yolla gedə bilər. Amma hiss olunur ki, V.Putin də, elə D.Medvedev rus rublunun "yüyən"ini birdəfəlik əldən buraxmağa ehtiyat edirlər...

İndi analitiklər neftin qiymətinin yaxın dövr üçün yeksək həddini proqnozlaşdırmağa çalışırlar. Amma qiymətləndirmələr optimizm üçün elə də ümid yaratmır...

Ən başlıcası bilirsiniz nədir? Avropa iqtisadiyyatının sağlam bədənində bir yara var - bu, Yunanıstandır. Amma Avrasiya İttifaqının məsələsi daha qəlizdir və onların halına yalnız acımaq lazım gəlir. Bir az əvvəldə qeyd etdiyimiz kimi Qzaxıstanın da, Rusiyanın da iqtisadiyyatı dərin böhran keçirir və onları heç bir çətinlik çəkmədən "xəstə iqtisadiyyatlar" adlandırmaq olar...

Bu yaxınlarda Qazaxıstanla Qırğızıstan arasında gömrük postlarının yağışdırılmasını göstərirdilər, guya ki, Avrasiya Birliyinin tənətənəsini gözə soxmağa cəhd edirdilər. Amma nə oldu?..

O oldu ki, dünya birjalarında çəkic neftin rekord dərəcədə ucuz qiymətinin üstündə dayandı. Təbii ki, insanları bir sual da düşündürür: bəs bizi nə gözləyir? Nə demək olar? Bircə onu deyə bilərik ki, Azərbaycan da neft hasil edən ölkədir və onun da büdcəsi, gəlirləri əhəmiyyətli dərəcədə neftdən asılıdır. Həm də Azərbaycan manatının da kursu əhəmiyyətli dərəcədə dövlətin səylərindən asılıdır-dövlət manatın kursunu sabit saxlamaq siyasətini dəyişsə, onda manatın da xeyli ucuzlaşacağını gözləmək lazım gələcək...

Əsas odur ki, Azərbaycan hələki Avrasiya Birliyi kimi mənasız layihələrə baş qoşmur və bunu çox düz edir...

Rusiya ağır böhran içindədir. Məmurlar özləri etiraf edirlər ki, təkcə sanksiyalara görə ölkə yüz milyardlarla dollar itki verib. Bəli, ölkənin valyuta ehtiyatları bir-iki il iqtisadiyyatı tənzimləməyə imkan verə bilər. Amma bu prosesin sonu var, çünki valyuta ehtiyatları sonsuz deyil...

92-93-cü illərdə hamı Rusiya təhlükəsindən danışanda mən yazırdım ki, narahat olmayın, Rusiyanın arzuları imkanlarına adekvat deyil, sadəcə, onunla bir az "oynamaq" lazımdır...

İndi də Rusiya təhlükəsini ciddi qəbul etmirik. Elə indi də onun arzuları imkanlarına adekvat deyil. Amma Rusiya çox istəyir, bəli, çox istəyir ki, elə Azərbaycanı da özünün bataqlıq qoxuyan layihələrinə cəlb etsin. Amma bu layihələrə hətta Rusiyanın indi, Ukraynadan sonra özünün əsas ümidi hesab etdiyi Qazaxıstan da inanmır... Səhv etmirəmsə, bu yaxınlarda deyildi ki, bəs bu ölkə də Dünya Ticarət Təşkilatına üzv olub...

Demək, hamı qəbul edir ki, siyasət həm də bir oyundur. Ona görə də burada bir təsəlli qalır: qoy, oyunçu aparsın...

YENİ MÜSAVAT
N 185 (6213) 24 avqust 2015



# Avropalılar İrana axın edir

## Vyana anlaşmasından sonra əlaqələr qaydaya düşür; İran Britaniya ilə diplomatik münasibətləri bərpa etdi...

**Böyük Britaniyanın İrandakı səfirliyi avqustun 23-də rəsmi mərasimlə yenidən açılıb. Açılış mərasimində Britaniyanın xarici işlər naziri Filip Hammond da iştirak edib. "Reuters" Agentliyinin şahidlərə istinadən verdiyi məlumata əsasən, nazirin iştirak etdiyi rəsmi mərasimdə Britaniya bayrağı səfirlik binasında qaldırılıb.**

Qeyd edək ki, Britaniyanın İrandakı səfirliyi 2011-ci ilin noyabrında iki ölkə arasında münasibətlərin gərginləşdiyi bir zamanda etirazçıların hücumuna məruz qalmışdı. Bundan sonra London səfirliyi bağlamışdı və diplomatik münasibətlər məhdudlaşdırılmışdı. Ancaq son iki ilə hökumətlər arasında səfirliyin yenidən açılması mövzusunda danışıqlar başlayıb. İyulun 14-də İran və "altılıq" ölkələri arasında nüvə məsələsi ilə bağlı yekun razılığın əldə edilməsindən sonra iki ölkə arasında səfirliklərin yenidən fəaliyyətə başlaması ilə bağlı danışıqlar sürətlənib.

Ancaq aydın məsələdir ki, Britaniya XİN rəhbərinin Tehrana səfəri yalnız səfirliyin rəsmi açılış mərasimi ilə bağlı deyil. 2003-cü ildən bəri Britaniya XİN rəhbəri səviyyəsində ilk səfər baş tutur ki, bunun da səbəbləri daha genişdir. Yeri gəlmişkən, eyni vaxtda İranın Londondakı səfirliyi də fəaliyyətini bərpa edir. Hommond özü də bəyan edib ki, səfirliklərin açılması və nüvə anlaşması ilə başlayan proses iki ölkə münasibətlərinin daha da inkişaf etməsinə səbəb olacaq. Eyni zamanda nazir bildirib ki, səfirliklərin açılması iki ölkə münasibətlərinin inkişafı baxımında ciddi önəm daşıyır.

F.Hommond embarqoların qaldırılmasından sonra iki ölkə arasında ticarət və sərmayə qoyuluşu sahəsində ciddi addımların atılacağını dəstəklədiklərini deyib. Paralel olaraq İran-Britaniya əlaqələri siyasi-diplomatik sahədə də inkişaf edəcək. Sitat: "İran və Britaniya iki ölkənin qarşılaşdığı terrorizm, regional sabitlik, İŞİD-İN Suriya və İraqda böyüməsi, narkotik və miqrasiya mövzularında danışqılara hazır olmalıdır".

Səfirliklərin açılmasının İran və Britaniyanın bütün mövzularda anlaşa bildikləri anlamına gəlmədiyini qeyd edən nazir bu hadisənin iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi və münasibətlərdəki fərqli yanaşmaları aradan qaldırmaqda yardımçı olacağını deyib.

Qeyd edək ki, Britaniya XİN rəhbəri Tehranda iranlı həmkarı Cavad Zəriflə görüşüb və iki ölkə arasında münasibətləri müzakirə edib. Britaniya XİN rəhbərinin İrana səfəri 14 iyulda əldə olunmuş nüvə razılaşmasından sonra Tehrana Avropadan artan marağın fonunda baş verir. Ondan əvvəl Avropa İttifaqı xarici əlaqələr komissarı Federika Moqerini, Almaniya kanslerinin müavini, Fransa XİN rəhbərinin və digər rəsmilərin rəhbərlik etdiyi nümayəndə heyətlərinin Tehrana yüksək səviyyəli səfərləri baş verib. Maraqlıdır ki, məhz nüvə anlaşmasından sonra embarqoların qalxması xəbərləri ilə birlikdə Avropanın 100 ən iri şirkətinin nümayəndələri artıq Tehrana səfər edib.

Avropanın Tehrana marağının arxasında heç şübhəsiz ki, ilk yerdə iqtisadi maraqlar dayanır. 80 milyona yaxın əhalisi olan və dünyanın ilk beşliyə düşən neft-qaz ölkəsi İran Avropa şirkətləri üçün xeyli dərəcədə cəlbedicidir. Avropa enerji şirkətləri İranın neft-qaz sənayesinə yatırıb qoyulması, həmçinin İran qazı və neftinin Avropa bazarına çıxarılmasında iştirakda maraqlıdır. Bundan başqa Almaniyanın və Fransanın maşınqayırma zavodlarını yenidən İrana qayıdıb istehsalla məşğul olmağa çalışırlar. Hazırda Yaxın Şərqin ən sabit ölkəsinə çevrilən İran böyük bir bazar olmaqla Qərbin maraq dairəsinə düşüb.

❑ KƏNAN

# Türkiyədə seçkilər fövqəladə rejimdə keçirilə bilər

**Məlum olduğu kimi, avqustun 23-də Türkiyədə parlament partiyalarının koalisiya hökuməti qurmaları üçün lazım olan 45 günlük vaxt rəsmən başa çatıb. Bu, o deməkdir ki, artıq prezident yeni seçkilər elan etməlidir. Buna qədərsə partiyalar keçici hökumət formalaşdıracaq və bu hökumət ölkəni 3 ay ərzində idarə edəcək. Ötən həftə prezident Rəcəb Tayyib Ərdoğan artıq yeni seçkilərin tarixini bəyan edib. Prezident bildirib ki, Türkiyədə yeni parlament seçkiləri bu il noyabrın 1-də keçiriləcək.**

## Orxan Qafarlı: "Belə bir təəssürat var ki, PKK yerli xalqı HDP-yə səs verməyə məcbur edir"



Doğrudur, hələlik parlamentin və MSK-nın bu barədə rəsmi qərarı yoxdur, ancaq müşahidəçilərə görə, bu məsələdə prezident söz sahibi olduğu üçün erkən seçimlər onun elan etdiyi təqvimdə keçiriləcək.

Ancaq Türkiyə bu seçkilərə çox ağır bir dönəmdə gedir. Ölkədə PKK ilə hökumət qüvvələri arasında toqquşmalar davam edir, üstəlik lirə dollar qarşısında sürətlə dəyər itirir, ölkənin əsas gəlir qaynaqlarından biri olan turizm çökməkdədir. Bütün bunlar Türkiyədə böhrana səbəb ola biləcəyi haqda rəylərə səbəb olur.

Belə bir vəziyyətdə ölkənin yeni seçkilərə getməsi yerli siyasətçilər tərəfindən tənqid olunur. Seçkilərin pozulması, təxribatların baş verməsi ehtimal olunur. Ancaq Yeni Türkiyə Araşdırmaları Mərkəzinin eksperti Orxan Qafarlı deyir ki, erkən seçkiləri əngəlləyə biləcək bir vəziyyət yoxdur. Ekspertə görə, seçkilərin hansı şəraitdə keçəcəyi ilə bağlı fərqli siyasi qrupların fərqli baxışı var: "MHP və AKP Türkiyənin şərqində fövqəladə vəziyyət elan olunaraq keçirilməsini istəyir. Daha doğrusu, AKP bunu istəyir. Çünki belə bir təəssürat var ki, PKK yerli xalqı HDP-yə səs verməyə məcbur edir. Ümumiyyətlə, belə bir təəssürat bütün milliyyətçi və mühafizəkar kəsimdə var. Mən bu kəsimin hesabatlarına baxmışam bu məsələ ilə bağlı. Məsələn iddia olunur ki, üç nəfərdən ən az biri PKK və ya digər kürd radikal qruplar tərəfindən HDP-yə səs verməyə məcbur edilir. Bu iddia ilə razılaşmaq çətindir. Türkiyənin şərqində xüsusən də kürd ərazilərində üç nəfərdən birinin bu şəkildə seçkilərə qatıldığını iddia etmək çətin olar. Məsələn, iddia olunsa ki, hər üç gəncdən birinin PKK qoşulması üçün ailələrinə təzyiq edilir, bu iddia ilə razılaşaram. Amma AKP və MHP liderlərində belə bir fikir olduğu üçün şərqi Türkiyədə seçkiləri fövqəladə vəziyyət elan olunaraq keçirilməsini istəyirlər".

O.Qafarlının fikrincə, MHP-nin bunda məqsədi HDP-nin bu dəfə parlamentə düşməsinin qarşısının alınmasıdır. Ekspertə görə, AKP-nin məqsədi isə regionda itirdiyi səsləri geri almaq, yəni potensial seçicilərini təzyiqdən qoruyub səs verməsini təmin etməkdir. Lakin O.Qafarlıya görə, belə bir daxili şərtlərin formalaşması üçün üç önəmli daxili və bir xarici faktor var: "Daxili faktor AKP-nin iqtidarı itirməsini istəyən müxalifətdir. Buraya sərmayə qrupları, dini camaatlar və siyasi partiyalar - HDP və CHP - var. Ən son silahlı qruplaşma PKK. Bunun üçün mən düşünürəm ki, PKK nə qədər son zamanlar HDP-nin ayağını tapdayaraq hərəkətlər etsə də buna baxmayaraq, bu partiyanın parlamentə keçməməsindən rahatsız ola bilər. Amma PKK-nın planı HDP içərisində Türkiyələşmə tezisini dəstəkləyən deyil, daha radikal adamların parlamentə düşməsinə çalışmaqdır. Bunun üçün HDP içində yaxın zamanda PKK-nın KCK mülki inqilabçı qolu öz namizədlərini irəli sürərək HDP-ni daha da radikallaşdırmağa çalışacaq. Hətta HDP-nin iki dönəm namizəd olma şərtinin erkən seçimlərdə də aktual olduğunu və bu prinsipə əməl olunmasını KCK və PKK israr edəcək".

O.Qafarlının fikrincə, PKK-nın məqsədi Sələhaddin Dəmirtaşın parlamentə düşməsinin qarşısını almaq, onun türkiyələşmə tezisini çökdürməkdir. Onun fikrincə, PKK bunun üçün öz şərtlərini HDP diktə etməklə yalnız bu şərtlərlə Türkiyənin şərqində terror aksiyalarını dayandırıb və HDP-yə yenidən dəstək verəcəyini açıqlayıb: "Lakin Türkiyədə kürd siyasi qrupların bu oyununu görən CHP və AKP var. Hər iki partiya sonunda kürd hərəkatı içində Türkiyələşmə tərəfdarlarının azalmasını və ya sıradan çıxmasını istəmirlər. Bunun üçün hər cür oyunu pozmaq üçün AKP öz maraqlarına və HDP maraqlarına cavab verəcək bir seçki keçirmək üçün parlamentə keçid faizini 7-yə endirmək istəyirlər. CHP də HDP-nin yenidən Şərqi Türkiyədə səs almasını istəyir. Çünki düşünür ki, AKP-nin iqtidar olmasının qarşısını bu yolla almaq olar. Ən azı 11% səs alması lazımdır".

Bundan başqa bu prosesə regionda əsas təsir imkanlarına sahib ABŞ-ın da mövqeyi təsir edəcək. Ekspertin fikrincə, Türkiyədə seçkilərin nəticələri bütövlükdə Yaxın Şərqin yenidən şəkillənməsi prosesinə təsir edəcəyi üçün Amerika və onun maraqlarını çox zaman təmsil edən media qrupları indidən artıq HDP-nin səslərinin 3-4 faiz çoxaldığı ilə bağlı kampaniya aparırlar. O.Qafarlıya görə, Vaşinqton seçkilərdə maraqlı tərəf olaraq qalır.

3 aylıq müddətə yeni seçki hökumətinin qurulmasına gəlincə, O.Qafarlı deyir ki, hazırda əsas müxalifət partiyaları olan CHP və MHP seçki hökumətində iştirakdan imtina edir. Ancaq qarşıdakı günlərdə bu mövzu dəqiqləşəcək və partiyaların hansı şəkildə, neçə nazirlə seçki hökumətində təmsil olunacaqları açıqlanacaq.

Yeni hökumətdə baş nazir postunun Əhməd Davudoğluna veriləcəyi bildirilsə də, Ərdoğanın baş nazirliyə alternativ adlar üzərində dayandığı da qeyd olunur. O.Qafarlı deyir ki, hazırda Numan Kurtulmuş və Yalçın Akdoğanın adı baş nazirliyə namizədlikdə hallanır. Lakin ekspertin fikrincə, Davudoğlunun yenidən baş nazir olması ehtimalı böyükdür.

❑ KƏNAN

# Zəkəriyyə Öz Almaniyadan siyasi sığınacaq istədi

## Ölkədən qaçan prokurorlar axtarış üçün İnterpola verildilər

**Türkiyədə haqlarında həbs qərarı çıxarılmış prokurorlar Zəkəriyyə Öz və Cəlal Karanın dosyesi İnterpola göndərilib. Avropa.info xəbər verir ki, bununla da keçmiş prokurorlar axtarışa verilib.**


Zəkəriyyə Öz

Xatırladaq ki, Gülənçi prokurorlar Zəkəriyyə Öz və Cəlal Kara "dövlət çevrilişinə cəhddə", "gizli təşkilat qurmaq"da ittiham olunurlar. Onlar haqqında həbs qərarı çıxarılmamışdan bir gün öncə, Türkiyədən Ermənistana, oradan da Almaniyaya qaçıblar.

Bu arada bəlli olub ki, Zəkəriyyə Öz Almaniyadan siyasi sığınacaq istəyib. Musavat.com-un məlumatına görə, keçmiş prokuror sığınacaq almaq üçün Federal Alman Prokurorluğuna müraciət edib. Sığınacaq tələbinin qəbul edilmə ehtimalının yüksək olduğu bildirilir.

Öz ilə birlikdə Almaniyaya qaçan "17 dekabr əməliyyatı"nın prokuroru Cəlal Karanın da eyni tələblə müraciət edəcəyi qeyd edilib. Həmçinin bildirilib ki, Öz Türkiyədən qaçarkən özü ilə mühüm sənədlər götürüb. Əgər Almaniya ona sığınacaq verərsə, Öz sənədləri Almaniyanın müvafiq orqanlarına təqdim edəcək.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Almaniya hökumətindən prokurorları geri verməyi tələb etmişdi.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi





# "Qarabağ müharibəsi gələn il başlaya bilər"

## Konflikt ətrafındakı mövcud status-kvo savaş risklərini saxlamaqdadır; izolyasiyada sıxılan işğalçı ölkə isə ümidini indi həm də İrana bağlayıb; **rusiyalı ekspert:** "Ermənilər xülyalarla yaşayırlar..."

**Hərbi əməliyyatlar üçün ən əlverişli dövr sayılan yay dövrü başa çatır. Ekspertlərə görə, qarşıdakı aylardan yalnız sentyabr ayı əlverişli ola bilər. Təbii ki, ağlı başında olan heç kəs müharibə arzulamaz. Lakin əgər söhbət Qarabağ münaqişəsindən, artıq 25-ci ilə keçmiş işğal faktından və bu fakta dünya birliyinin, vasitəçi dövlətlərin laqeydliyindən gedirsə, ayların müharibə üçün əlverişlilik kateqoriyasına bölünməsi ənənəsi də öz qüvvəsini saxlayacaq.**



Andrey Yepifantsev

Müharibə riski isə həqiqətən də var və yüksəkdir. Bunu indi həm də nəticəsiz sülh danışıqları və nizamlama prosesinin neçə aydır dalana girməsi təsdiqləyir. Bəs konkret olaraq qarşıdakı aylarda, sentyabrda gözləntilər necədir, yeni müharibə ehtimalı varmı?

Burdaca yada salaq ki, Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü Amerikanın təşəbbüsü ilə məhz sentyabr ayına - Nyu-Yorkda planlaşdırılır. Görüş üçün məhz bu ayın seçilməsi bir təsadüfdür, yoxsa?..

***

"Nəzəri cəhətdən Qarabağ münaqişəsi zonasında yeni müharibənin başlanması mümkündür, ancaq hər halda bu il aktual deyil, növbəti ildə isə tamamilə mümkündür". Musavat.com-un məlumatına görə, bu barədə Cənub Qafqaz məsələləri üzrə rusiyalı ekspert Andrey Yepifantsev erməni portalına müsahibəsində bildirib.

Onun sözlərinə görə, Azərbaycan nə qədər çox silahlansa və razılığa gəlmək mümkün olmasa, bir o qədər müharibə ehtimalı da yüksək olacaq. "Aydındır ki, Ermənistan heç vaxt müharibəyə başlamayacaq. Təşəbbüskar Azərbaycan olacaq" - hesab edir ekspert. Politoloqun fikrincə, bu payız Azərbaycanda parlament seçkiləri gözlənildiyindən, seçkilər başa çatmamış hərbi əməliyyatların bərpası ehtimalı sıfıra bərabərdir".

Münaqişədə Moskvanın hazırkı rolu və marağına gəlincə ekspert deyib: "Rusiyaya regionda qeyri-sabitlik sərfəli deyil. Moskva istəyir ki, situasiya tərəflərin qarşılıqlı razılığı ilə sabitləşsin. Rusiya üçün iki münaqişə tərəfinin müttəfiqi olmaq çətindir, o, daim hər iki tərəfin tənqidinə məruz qalır. Əgər Azərbaycan və Ermənistan müharibəyə girsə, Rusiya ya onlardan birini müdafiə eləməli, ya da birinin qabağını almalı, çəkindirməlidir. Əgər Kreml Rusiya-Ermənistan qarşılıqlı hərbi-siyasi müqaviləyə əsasən Ermənistanı müdafiə eləsə, bu, Rusiya-Azərbaycan münasibətlərini ciddi şəkildə korlayacaq".

Politoloq dünya oyunçuları arasında da yeni Qarabağ müharibəsində maraqlı olan ölkənin olmadığını düşünür. "Bəlkə də, müharibə müəyyən dərəcədə Türkiyəyə sərf edərdi, əgər Ankara əmin olsaydı ki, Azərbaycan bu müharibədən qalib çıxacaq. Belə əminlik isə yoxdur. Müharibənin qızışması ABŞ-ın da marağında deyil" - əlavə edib ekspert.

***

İzolyasiya şəraitində yaşayan və iqtisadiyyatı böhran mərhələsinə girən işğalçı Ermənistan isə ümidini indi də İranla "altılıq" ölkələri arasında Tehranın nüvə proqramı ilə bağlı əldə edilən Vyana anlaşmasından sonra İran qazının Avropa bazarlarına öz ərazisindən keçməsinə bağlayıb. Ancaq rusiyalı politoloqun da etiraf elədiyi kimi, bu, yalnız arzudur, ilğımdır. Çünki belə bir şey gözlənilmir.

Sitat: "İran qazının Avropaya çatdırılmasında ən azından 3-4 ixrac variantı mövcuddur. Mənim fikrimcə, Ermənistandan və ya Gürcüstandan keçən marşrutlar az ehtimallıdır, çünki iqtisadi cəhətdən ən bahalıdır. İrandan Ermənistana, Gürcüstana, Batumiyə, oradan ya Rumıniya, ya da Bolqarıstan. Başqa variant - Türkiyədir, hansını ki, reallaşdırmaq asandır. Orada artıq bir qaz kəməri var, ikincisini qurmaq da çətin deyil. Ola bilsin, NABUCCO layihəsi də gündəmə qayıtsın. O layihədən İrana embarqo qoyulduğu üçün imtina edilmişdi. Ancaq Tehran dünya siyasətinə qayıdandan sonra bu variant da mümkün hala gələ bilər. Mən Ermənistan vətəndaşlarına məsləhət görərdim ki, qazın nəqli ilə bağlı böyük arzular qurmasınlar. Bununla belə, kəmər Ermənistandan keçərsə, Rusiyanın reaksiyası müsbət olacaq. Lakin qaz bazarı ilk növbədə alıcının bazarıdır. Bu gün şərtləri məhz alıcı diktə edir - qazı kimdən, necə alsın və s. Əgər Avropa qazı o yolla alacaqsa, Rusiya heç nə edə bilməz. NABUCCO ilə Ermənistanı müqayisə eləsək, Moskva üçün Ermənistan məqbuldur. Ona görə ki, Ermənistan bizim müttəfiqimizdir, Avrasiya İqtisadi Birliyinin üzvüdür. Bu, bizim üçün əlverişli olardı, çünki o halda Ermənistanın rolu artardı. Hazırda Ermənistan bütün nəqliyyat imkanlarından məhrumdur".

Rusiyalı analitik bu yerdə Vyana anlaşmasına Kremlin niyə öz ziyanına olsa belə, dəstək verməsi sualına maraqlı bir cavab verib və faktiki surətdə Moskvanın Qarabağ məsələsinə təsir imkanlarına da işıq salıb: "Rusiya həqiqətən də Tehranın "altılıq"la anlaşma əldə eləməsinə kömək edib. Aydındır ki, bundan sonra İran qazının Avropaya nəqli bərpa oluna və bu da Rusiya qazının qiymətində özünü göstərə bilər. Bununla belə, Moskva anlaşmaya kömək edib, çünki Rusiya elə böyük dövlət deyil ki, bunu əngəlləyəydi. Əgər Qərb dövlətləri istəsəydi, Rusiya əleyhinə olsaydı da, sənəd imzalanacaqdı və Moskva axmaq vəziyyətə düşəcəkdi. Bu isə İranla sonrakı münasibətlərə neqativ təsir edərdi. Alternativ variantlar var ki, onlar İran qazının Avropaya nəqli ilə bağlı Kremlin üzləşəcəyi itkiləri kompensasiya edir. Bəli, Rusiya bu addımı şüurlu şəkildə gedib və anlaşmanın baş tutmasına stimul verib. Rusiyanın qaz ixrac kəmərlərinin qarşısını alacağını söyləmək qeyri-ciddilik olardı - Rusiyanın belə çəkisi və nüfuzu yoxdur. Rusiya əgər Ermənistandan keçən yolu əngəlləsə, Qərb bunu Türkiyə vasitəsi ilə edəcək və o zaman yüz faiz Rusiya buna mane ola bilməz. Bu, bizim üçün az əlverişlidir. Biz İran qazının Avropaya çatdırılmasına bütün hallarda təsir göstərə bilməyəcəyik. Bizim üçün həm iqtisadi, həm siyasi cəhətdən kəmərin Ermənistandan keçməsi sərfəlidir".

***

Bu, doğrudan da belədir - Rusiya dünyada, regionda sovet dönəmindəki kimi Qərb qədər güclü oyunçu deyil. Başqa sözlə, ABŞ və Avropa Birliyi Dağlıq Qarabağ məsələsində də siyasi iradə ortaya qoysa, problem həllini tapar və Rusiyanın bu prosesə dəstək verməsindən savayı çıxış yolu qalmaz.

Rusiyanın iqtisadi sanksiyalar altında getdikcə zəifləməsi bu ehtimalı günbəgün artırmaqdadır. Demək, məntiqlə rəsmi Bakının Qərblə münasibətləri gərginləşdirməsi Azərbaycanın köklü mənafelərinə, Qarabağ məsələsinin ədalətli həll perspektivinə işləyə bilməz. Rusiya ilə normal qonşuluq əlaqələri öz yerində, Qərblə münasibətlərimizi zəruri səviyyəyə çatdırmalıyıq - ən azından Qarabağa görə.



# İnterpol Azərbaycan düşməninin axtarışını dayandırdı

**İnterpol Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlə məşğul olan rusiyalı biznesmen German Sterliqovun axtarışını dayandırıb (APA). Bu barədə onun vəkili Artur Ayrapetov bildirib.**

Vəkil deyib ki, İnterpol siyasi motivlərə görə tutulması istənilən şəxslərin axtarışını həyata keçirmir: "Çünki bu, təşkilatın Nizamnaməsinə uyğun deyil. İnterpolun komissiyası isə Azərbaycanın Sterliqovu təqib etməsini siyasi motivli hesab edib. Biznesmen 10-15 gün İnterpolun axtarış bazasında olub, avqustun 21-də isə onun beynəlxalq axtarışı dayandırılıb". Vəkil onu da əlavə edib ki, hüquqların müdafiə etdiyi şəxs avqustun 29-dək Dağlıq Qarabağda qalacaq.

Qeyd edək ki, Azərbaycan G. Sperliqovu iyulun 28-də İnterpol xətti ilə axtarışa verib. Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Sterliqov və digərlərinin Azərbaycan Respublikasının dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və nəzarət-buraxılış məntəqələrindən kənarda qanunsuz keçərək Ermənistan Silahlı Qüvvələri tərəfindən Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinə gəlmələri və dövlət əleyhinə yönələn açıq çağırışlar etmə əməlləri üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi başlanılıb.

İttiham üçün əsas verən kifayət qədər sübutlar toplanıldığından 28 iyul 2015-ci il tarixdə German Sterliqov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 281.2 və 318.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barəsində Bakı şəhəri, Nəsimi Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# Niyə intihar edirik, dəli olmuşuq?

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Azərbaycan müharibə aparan ölkə olduğu üçün onun cəbhədə verdiyi hər bir itki ağrılı qarşılansa da, təbii sayılır. Görünür elə buna görədir ki, Mingəçevirdə polis bölməsində müəmmalı şəkildə ölən 24 yaşlı Bəhruz Hacıyevin atası "kaş ki, oğlum müharibədə şəhid olaydı" deyir və atanın yanaşması tam təbiidir.**

Hələ ki, araşdırma gedir və Mingəçevirdəki hadisənin intihar, yoxsa döyülüb öldürülmə olması sonda qəti bilinəcək, günahkarlar cəzasını alacaq. Ancaq bu, bir intihar hadisəsi olsa belə, məsələni bitmiş sayıb üstündən keçmək, hadisənin baş vermə səbəblərinin üstünə getmək lazımdır. Cəmiyyətimizdəki neqativlər, ədalətsizliklər sonda insan talelərinin qırılmasına gətirib çıxarır və özü də bu, kimi faktlar artan xətt üzrə gedir.

Ölkə yollarındakı itkiləri, dənizdə, göllərdə, çaylarda boğulma ilə nəticələnən ölüm hallarını son vaxtlar intiharlar əvəzləyib. Deyək ki, Mingəçevirdəki hadisə istisnadır, bu halda təhrikedici şəxslər olub və s. Bəs, eyni həftədə İsmayıllı rayonunda baş verən intihar hadisəsinə nə deyirsiniz?

Avqustun 22-də rayonun Aşıqbayramlı kəndinin sakini, 59 yaşlı Fizuli Rüstəmov Fizuli Mərcəfər avqustun 20-də evdən çıxıb və bir daha geri dönməyib. Onun meyiti 22-sində göldən tapılıb. Məlumata görə, mərhum uzun müddətmiş dəri xərçəngindən əziyyət çəkirmiş.

Saatlı rayonunda isə Qıraqlı kəndinin 24 yaşlı sakini Mirvasif Həşimov özünü asıb. İntiharın hansı səbəbdən baş verməsi araşdırılır. Ancaq nə faydası..?

Eyni gündə qonşu Sabirabadda 25 yaşlı gənc kəndiri boğazına keçirib. Cabbar Cabbarovun meyiti yarımçıq tikilinin damında aşkarlanıb. Onun ruhi xəstə olduğunu deyirlər. Ruhi xəstə məsələsinə isə xüsusi toxunmaq istəyirəm. Fakt budur, adətən, intihar edənlərin ya ruhi xəstə, ya da ağır xəstəlikdən əziyyət çəkdiyi açıqlanır. Düzdür, son illərdə Azərbaycan əhalisi arasında psixi xəstələrin sayı artıb. Bunu rəsmi rəqəmlər də deyir. Dövlət Statistika Komitəsinin məlumatına görə, müalicə-profilaktika müəssisələrində qeydiyyata düşənlərin sayı 2012-ci ildə 121139 nəfər olubsa, 2014-də bu rəqəm 2995 nəfər artaraq 124134 nəfərə çatıb. Qorxulu rəqəmdir.

Son illərdə ailələrdə bir sıra dəhşətli qətllər elə psixi pozğunluqlar səbəbindən olur. Şübhə yox ki, bir sıra insanlar ailədəki gərginlikdən, işsizlikdən, müalicəsizlikdən, ailə-uşağnın, özünün minimum tələbatını ödəyə bilməməsindən depressiyaya düşür, həyata marağı ölür, başı pozulur və günün birində ya kəndiri boynuna keçirir, ya da ailəsini qana boyayır. Belələrini sakitcə "ruhi xəstə" adlandırıb torpağa gömmək çıxış yolu deyil.

Görünən budur ki, növbəti qlobal böhran, manatın devalvasiyası, neftin ucuzlaşması, bazardakı bahalıq, ciddi təbəqələşmə Azərbaycana da öz təsirini növbəti dəfə göstərəcək. Necə ki, fevral devalvasiyasından sonra bağlanan iş yerlərinin, kasıblaşan əhalinin sayı xeyli artdı, hətta daş karxanalarında belə işsizlik hökm sürür. Ən qorxulusu odur ki, belə bir vəziyyət isə intihara meyli gücləndirə bilər. Əvvəllər ölkədə iş-güc sahibi ola bilməyən gənclər "başımı götürüb gedirəm Rusiyaya" deyirdilər. Beləcə başını götürüb gedənlərin sayı 2 milyonu keçdi. Hətta onların burada aylarla ər gözləyən ailəsi də günün birində təngə gəlib evdən qaçmağa qərar verir, bu da başqa bir faciədir. Ancaq artıq başını götürüb getmək üçün Rusiya ideal yer deyil, ordakılar da böhranın gətirdiyi bəlalarla üzbəüzdür. Belə bir durumda çıxış yolları aranmalıdır. Heç olmasa növbəti "keçid dövrü" üçün. Elə yollar aranmalıdır ki, üzərində tikilmiş körpülərdən keçərkən insanlar intihar haqda düşünməsinlər - "Koroğlu" körpüsü kimi.

Avqust ayının intiharlar siyahısı isə genişdi. Ayın 12-sində Suraxanı rayonunda 42 yaşlı Ayaz Fikrət oğlu Hüseynov üzərinə benzin tökərək özünü yandırmaq istəyib, 17-sində isə bir qadın benzini Prezident Administrasiyasının binası qarşısında başına səpib, son anda xilas edilib.

Biz hələ başqa intiharlardan danışmırıq, məsələn, İsmayıllı rayonunda "evdən qaçan həyat yoldaşının həsrətinə dözməyən" bir uşaq atasının özünü asmasından, "Yeni Günəşli"də arvadından küsən kişinin dama çıxıb özünü öldürmək istəməsindən danışmırıq. Hərçənd bu məsələlər də diqqətdən kənarda qalmamalı, ölkə vətəndaşlarının psixi durumunun göstəricisi sayılan hər bir fakt araşdırılmalıdır. Özümüzü öldürəcəyiksə, heç bizə düşmən lazım deyil...

# Dərsə gedən bir uşağın xərcləri...

## Valideynlər bahalıqdan gileylənir, satıcılar isə hələ yeni qiymət artımının olacağını deyirlər; **Eyyub Hüseynov:** "Bu sahədə ən dəhşətli vəziyyət məktəbli formaları ilə bağlıdır..."

**Yeni dərs ilinin başlamasına bir aydan da az vaxt qalıb. Vaxt yaxınlaşdıqca şagirdlərlə yanaşı, valideynlərin də həyəcanı artır. Valideynlərin həyəcanı uşaqlarına edəcəkləri məktəb bazarlığı və bu bazarlığın onlara neçəyə başa gələcəyi ilə bağlıdır. Çünki məktəblərin açılmasına hələ bir müddət qalmasına baxmayaraq qiymətlər od tutub yanır.**

"Dərsə gedən bir uşağ"ın xərclərinin nə qədər tutacağını öyrənmək üçün məktəb ləvazimatları satılan bir neçə mağazaya baş çəkdik. Valideynlər qismən ucuz ala bilsinlər deyə indidən məktəb alış-verişinə çıxsalar da, vəziyyətdən narazı idilər. Uşaqlarına çanta alan Samirə İbrahimova qiymətlərin bahalığından gileyləndi: "Məcburam ki, uşağa çanta, dəftər-qələm alım. Amma qiymətlər çox bahadır. Qızım bu il 1-ci sinfə gedəcək. Onun xərcləri daha çoxdur. Ona yeni məktəbli forması, köynək, çanta, qələm, karandaş, çox şeylər almalıyam. Hesablamışam, təkcə bir uşağa 200 manata yaxın pulum çıxacaq. Hələ iş dəftərlərini demirəm. Oğlum isə 4-cü sinfə gedir. O uşağa pul olmadığı üçün yeni çanta ala bilməyəcəyəm. Uşaqlar da vəziyyəti başa düşür və köhnə çantalarını aparmağa razılaşırlar".

Digər valideyn Mətanət Məsimova isə qiymətlərin hələ ki, çox da bahalaşmadığını deyirdi: "Məktəbin başlamasına 1 həftə qalmış biz bu qiymətlərə şükür edəcəyik. Əgər indi 1-2 manat bahalaşma varsa, məktəbə yaxın bu 4-5 manat olacaq. Biz, demək olar ki, məktəb bazarlığını etmişik. Hələ ki, 200 manat pulum çıxıb. Məktəb ləvazimatlarını 2 ay əvvəldən çıxarıb satsaydılar, biz də ucuz ikən alardıq. Amma bu, satıcılara da sərf etməz deyə məktəbin başlamasına az qalmış satırlar".

Satıcılar isə qiymətlərin onlardan asılı olmayaraq qalxdığını deyirlər. Satıcı Rüstəm Əliyevin sözlərinə görə, onun satdığı çantalar keyfiyyətli olduğu üçün bahadır.

Qeyd edək ki, məktəb ləvazimatlarının qiyməti satış nöqtəsinin yerləşdiyi əraziyə görə də dəyişirdi. Misal üçün, məktəbli çantaları "Neftçilər" metrosu yaxınlığında 15-30 manat arasında satılırsa, "Metropark"da 50-180 manata idi. Burada 220 manata da çanta almaq mümkün idi. Ancaq bu çantaların alıcıları, demək olar ki, yox idi. Satıcı satdıqları çantaların keyfiyyətli və Türkiyə istehsalı olduğu üçün bahalı olduğunu bildirdi.

Digər məktəbli ləvazimatlarına gəlincə isə qiymətlər belə idi: 100 vərəqli dəftərlər 50 qəpik-1 manat, sadə karandaş 10-80 qəpik, xətkeş 20-60 qəpik, pozan 20 qəpik-1 manat arası, flomastr 3-15 manat arası, qələm qabı 2-6 manat












arası, rəngli kağız 80 qəpik-3 manat arası, qovluq 3-5 manat arası, yapışqan 50 qəpik-2 manat arası, pərgar 80 qəpik-5 manat arasında satılırdı.

Birinci sinfə gedəcək şagirdlər üçün nəzərdə tutulan ləvazimatların da qiyməti baha idi. Belə ki, balacalar üçün nəzərdə tutulan yemək qabı 5-10 manat, su qabı 2-15 manat, rəsm albomunun qiyməti isə 40 qəpik- 3 manat arasında satılırdı.

Hələ məktəb bazarlığı bununla yekunlaşmır. Uşaqlar üçün nəzərdə tutulan ağ köynəklərin qiyməti isə 20 manatdan başlayırdı. Müxtəlif test kitabları, əlavə tədris vəsaitləri, yuxarı sinif şagirdləri üçün tapşırıq, misal kitabları 3-5 manata, test bankları 2-3 manatadır. İş dəftərlərinin qiyməti də fənnindən asılı olaraq dəyişilirdi. Bir valideynə məktəbə yola salacaq övladı üçün 5-6 fəndən iş dəftəri almaq 30 manata başa gəlirdi.

Dərsliklərin məktəbdən pulsuz verilməsi valideynləri az da olsa dərslik almaq xərcindən azad edib. Ancaq məktəbdən verilməyib valideynin özünün almalı olduğu "Sinifdənxaric oxu" kimi dərsliklər də var ki, onların da qiyməti 5 manata idi.

***

Maraqlıdır, hər il məktəb ərəfəsində kəllə çarxa qalxan qiymətlərin qarşısını almaq üçün tədbirlər görülürmü?

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov ictimai nəzarət olmasa bu cür halların davam edəcəyini bildirdi: "Məlumdur ki, bazarda bu mallara tələb artıb. Hər bir seqment müəyyən qurumların əlindədir və qiyməti onlar müəyyən edir. Baxmayaraq ki, ölkə prezidenti dəfələrlə bazarda inhisarçılığın mövcudluğunu dilə gətirib, kartersiz özəlləşmələrin, yəni qiymətləri razılaşdırmamış qoyulmasının qarşısını alınması barədə tapşırıqlar verir. Lakin buna baxmayaraq hər il bu iş təkrarlanır. Bu sahədə ən dəhşətli vəziyyət isə məktəbli formaları ilə bağlıdır. Məktəbli formalarını tikən qurum özünün hökmran mövqeyindən istifadə edərək uşaqlara uyğun olmayan formaları çıxartdırırlar. Bakı Tikiş Evinin arxasında da 40 minlik müəllim ordusu və böyük bir nazirlik durur. Ona görə də hökumət gərək bunun standartlarını müəyyənləşdirib elan etsin. Bazar tam liberallaşsın və kim hansı ölkədən necə məktəbli forması istəyirsə, gətirib satsın. Lakin bunu etmirlər. Eləcə də məktəbli çantalarında problemlər var. Düşünürəm ki, bazar bu sahədə liberallaşmalıdır. Bu sahəyə nəzarət edən dövlət qurumları, İqtisadiyyat və Sənaye Nazirliyi ciddi nəzarət etməlidir. Adı çəkilən dövlət qurumları əhalinin sosial müdafiəsinə yönəlmiş tədbirləri daha da gücləndirməlidir. Bunların da səhv cəhəti odur ki, onlar kütləvi informasiya vasitələri ilə, ictimai təşkilatlarla mütəşəkkil işləmirlər. Baxmayaraq ki, ölkə prezidenti 27 may Respublika Günündə çıxış edib, ölkədə ictimai nəzarətin vacib olduğunu dedi. Amma ictimai nəzarəti dövlət qurumu istəyir ki, daim öz əlində saxlasın. Bu da çox səhv fikirdir. Nə qədər ki, ictimai nəzarət zəifdir, bu cür hallar baş verəcək".

❑ Günel MANAFLI
Fotolar müəllifindir

YENİ MÜSAVAT
N 185 (6213) 24 avqust 2015

**"Təbriz" küçəsi ilə gedərkən yolun sağ kənarındakı səkilərin və dəmir qutuların üstünə düzülmüş kitablar diqqətimi çəkdi. Kənarda skamyada oturmuş kişi müştəri olduğumu zənn edib yaxınlaşdı və dərhal kitablar haqda məlumat verməyə başladı.**

# Dərələyəzli bukinistin acı taleyi

## Elşad Abbasov: "Heç olmasa kitabları yığmaq üçün bir yer versinlər, elə orda da gecələyək"

Bukinist kitab mərkəzləri bütün dünyada geniş inkişaf edib və normal hal sayılır. Bakıda vaxtilə belə ünvanlar xeyli populyar idi və xüsusi olaraq nişan verilirdi. Lakin normal ünvanlarda olanlar, təbii ki... Əslində avtomobillərin intensiv hərəkət etdiyi bu ərazidə, üstəlik tikinti işlərinin də getməsi səbəbindən toz-dumanı əskik olmur. Kitabların üç addımlığında isə zibil qabları qoyulub, qabların ətrafı da zibil yığnağıdır. Kəsəsi, bura kitab satmaq üçün heç də normal yer sayılmaz. Normalda bu zir-zibilli ərazidən kimsə istədiyi kitabı alıb evinə aparmağa ürək eləməz. Amma həmsöhbətim çarəsizlikdən bu işlə məşğul olduğunu, həm də bu ünvanı seçdiyini az sonra özü açıqlayacaq.

Abbasov Elşad Abbas oğlu 1955-ci ildə Qərbi Azərbaycanın Dərələyəz mahalında anadan olub. Həyat yoldaşı bir neçə il əvvəl dünyasını dəyişib, bir övladı ilə baş-başa qalıb. Kitab satışı ilə dolanmağın çətin olduğunu deyir: "Gündə 1-2 kitab satıram. Yay vaxtı çətindir. Dərs vaxtı bir az çörəkpulumu çıxarıram. Qardaşım da, məndə pensiya alırıq. Pensiyam 100 manatdır. A kişi, ikinci qrup əliləm, mənə 100 manat pensiya verir. Halbuki əmək və əhalinin sosial müdafiəsi naziri televiziyadan dedi ki, 3-cü qrup 60-100 manat, 2-ci qrup 130-180 manat,1-ci qrup 200-240 manat arasında pensiya alacaq. Yaxşı, nazir belə deyirsə, məmurlar niyə eşitmirlər? Bu ölkədə necə yaşayaq? Mənim xidmətlərim olub axı".

E.Abbasov hətta deyir ki, kollecin bir küncündə də kitablarını düzüb sata bilər: "Kollec rəhbəri deyir sənə yer verincə, elə bir emalatxana açdıraram da. Deyirəm, müəllim, emalatxana da açdır, ona 10 metr yer ver, mənə 3 metr bəs edər".

Satdığı kitabları aldığı ünvanlar haqda da danışır: "Kitab mağazalarından alıram. Kimsə deyir ki, kitabımız var, gəl, bax, evlərdən alıram. Ya da görürlər kitab satıram, hörmət edirlər, gətirib verirlər. Millətimiz məni dolandırır".

Yaxınlıqdakı zibil qabları barədə isə yana-yana danışır: "Əvvəl bu qabları uzağa qoymuşdular, sonra qəsdən bura gətirdilər. Deyirəm, müəllim, axı, belə olmaz, bura insanlar gəlir, kitablara baxırlar, bura zibil tökmək düzgün deyil. Qayıdır ki, xoşun gəlmir, çıx, get! Deyirəm, ay müəllim, mənim xidmətlərim olub, bəs sən nə etmisən? Bax, gör kitablar hardadır. Daha bu kitabları silməkdən yorulmuşam. Yağış yağanda bilmirəm nə edim. ".

Həmsöhbətim mənzil problemi ilə də baş-başadır. Davam edərək deyir döymədiyi qapı qalmayıb: "Son 1 il 4 ayda prezidentə 18 ərizə yazıb post qutusuna salmışam. 9 ərizə ilə də qəbula getmişəm. Nərimanov Rayon İcra Hakimiyyəti mənə bir daxma vermir. Mənim kifayət qədər xidmətlərim olub.1989-cu ildə fevralın əvvəllərində 76 nəfər qadın, uşaq, qocanı daşnakların əlindən qurtarıb dağ-daşla, çovğunda, boranda Şərura endirmişik. Başda da mən olmuşam. 1992-ci ildə fevralın 25-dən 26-na keçən gecə ermənilər Xocalını qanına qəltan elədilər. Mən o zaman Bərdədə yaşayırdım, 26-sı təxminən saat 12 radələrində Xocalıya köməyə gedənlərin arasında mən də var idim. Könüllü kimi Qarabağ döyüşlərinə qatılmışam. Tərtər istiqamətində döyüşlərdə ermənilərin cavablarını vermişik, ANS-in qızıl fondunda bunu sübut edən çəkilişlər var. Mənim belə xidmətlərim olub, bunlar niyə nəzərə alınmır?" E.Abbasov deyir ki, könüllülər batalyonu buraxılandan sonra o da mülki həyata qayıdıb.

"Sverdlovskda hüququ bitirmişəm. Burda da Respublika Prokurorluğunda polis orqanları üzrə nəzarət şöbəsində işləmişəm. 1999-cu ildən 2002-ci ilin axırına qədər. Lakin sonradan müəmmalı şəkildə zəhərləndim,90-a yaxın çəkim vardı, indi heç 50 kilo çəkim yoxdur. Ailəm rəhmətə gedib, özüm və uşağım çöllərdə qalıb. Bu illərdə qohum-əqrəbanın evində yaşadıq. Kirayə qalırdıq, indi ordan da çıxarıblar, məktəbin qazanxanasında, orda-burda başımızı saxlayırıq. Qardaşım da camaatı Dərələyəzdən endirəndə ermənilərin gülləsinə tuş gəlib, beş dəfə əməliyyat olunub, o da mənim kimi çöllərdədir".

Çox böyük iddiada da deyil: "Xahiş edirəm ki, mənə bir daxma versinlər. Demirəm ki, geniş mənzil versinlər. Mənzilin qiyməti 25-30 mindir. Yataqxanalarda boş yerlər var, neçəsinə dövlət ev-eşik verib, ancaq həmin şəxslər o otaqları kirayə veriblər. O otqlardan birini versinlər, mən də qardaşım, uşağımla birgə ora yığışım, qalmışıq küçələrdə. Belə olmaz axı, nə ərizəyə, nə şikayətə baxılır. Heç olmasa kitabları yığmaq üçün bir yer versinlər, elə orda da gecələyək, ayrı çarəmiz nədir?"

Bütün bu məşəqqətlərə gününün birində son qoyulacağına böyük inamı var: "6 ildir burda kitab satıram. Dəfələrlə normal yer ayrılması üçün müraciət etmişəm, xeyri yoxdur. Yazdığım ərizələri Bakı Şəhər və Nərimanov Rayon İcra Hakimiyyətinə göndərirlər. Adamlar gəlir, ancaq Bakı İdarəetmə Texnologiya Kollecinin müdiri deyir ki, buna yer verməyin, bu, müxalifətdir. Ancaq mən müxalifət deyiləm, sadəcə, haqqımı tələb edirəm. Mən ərizəmdə də yazmışdım ki, mərhum ulu öndərimiz deyib bukinist kitab satanları incitməyin. Təhsil Nazirliyi bunlara şərait yaratsın ki, işləsinlər. Ancaq ulu öndərimizin sözlərini nə Təhsil Nazirliyi, nə Bakı Şəhər İcra Hakimiyyəti, nə Nərimanov Rayon İcra Hakimiyyəti, nə Şuşa Kollecinin, nə də Bakı İdarəetmə Texnologiya Kollecinin rəhbərliyi eşitdi. Sənə qurban olum, belə şey olmaz".

Ayrılarkən həmsöhbətimiz yenə də "qurban olum, yaz qəzetində, bəlkə dərdimə bir çarə tapıldı" deyib imdad dilədi. Biz də yazdıq və ümid edirik ki, aidiyyəti qurumlar bir insan taleyinə, həm də erməni zülmündən xilas olmuş ailənin acınacaqlı gün-güzəranına biganə qalmayacaqlar.

İş günü olmadığından adı çəkilən qurumların və şəxslərin mövqeyini öyrənə bilmədik. Ancaq "Yeni Müsavat" yazıda adı çəkilən hər kəsin cavab haqqını tanıyır.

❑ **Cavid TURAN**
**FOTO: "YM"**










**"1989-cu ildə fevralın əvvəllərində 76 nəfər qadın, uşaq, qocanı daşnakların əlindən qurtarıb dağ-daşla çovğunda, boranda Şərura endirmişik"**

# Şişirdilmiş Tiflis...



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

## Və ya gürcülər xidmət sektorunu niyə ağlar günə qoyublar?

**Məlum, yay tətilləri bitmək üzrədir. Azərbaycanlıların böyük əksəriyyəti istirahətini yaxşı-pis yekunlaşdırdı. Hərə öz büdcəsinə, arzusuna, xəyalına görə. İddiası ilə müddəası uyğunlaşanlar da oldu, "xəyallar və gerçəklər" janrında cibinin kasıblığından əziyyət çəkənlər də... Amma bu, bir gerçəkdir ki, azərbaycanlıların son illərdə heç azalmayan Tiflis sevdası bu il də özünü göstərdi - istirahətə Tiflisə, Türkiyəyə Tiflisdən, Tiflisə, sonra isə Batumiyə, BakuriyaniyəE Qrafiklər nə qədər dəyişik olsa da, hamının yolu Gürcüstanın paytaxtından keçdi. Kayahan misalı, yolu sevgidən keçən hər kəs onun mahnılarında görüşdüyü kimi, yolu tətildən keçən əksəriyyət də Gürcüstanı özünə mütləq dayanacaq seçdi.**

Bəli, gözəldir. Qəbul edirik, Avropa şəhərlərini xatırladır. Bakıdan fərqli olaraq, çığırmayan, makyajlı qadınlar kimi adamın gözünə soxulmayan bir gözəlliyi var. Təbiiliyini, tarixiliyini saxlayıb, gələnə huzur verir. Gedəni bir daha gəlməsi üçün təşviq edir, amma...

Tiflisə təyyarə ilə gələnlər bilir. Aeroportda hər adama bir balaca çaxır şüşəsi verirlər. Qonaqpərvərliyin əlaməti olaraq. Etiraf edirəm ki, getdiyim heç bir xarici ölkənin aerportunda belə jestlə, qonaqpərvərlik nümunəsi ilə qarşılaşmamışam. İnsafən, aeroportun işçiləri də çox gülərüz olurlar. Yanında balaca uşağın varsa, ona pozitiv nəzərlərlə, gülərək baxmalar, göz vurmalar, gedəndə əl yelləmələr... Düşünürsən ki, elə getdiyin şəhərdə də səni eyni mehribanlıqla qarşılayacaqlar.

Amma elə olmur. Getdiyin mağazadan tutmuş kafe-yə-restorana qədər hər yerdə gürcü şovinizminin elementləri üzünə sillə kimi çırpılır. Məlum, gürcü dilini bilmirsən. Rusca danışırsan, üzlərinə anlamadıqları ilə bağlı ifadə verirlər. İngilis dilində anlatmağa çalışırsan, bənzər reaksiya... Halbuki bilməlidilər, bilmirlərsə, öyrənməlidilər. Anadolu qardaşlarımız kimi, ingiliscəni ruscaya qatıb, müştərini razı salmağı bacarmalıdılar.

Amma elə bir tövrlə qarşılaşırsan ki, sanki sən gecə 3-də bunların şəxsi evlərinin qapısını döyüb, "bir neçə gün sizin evinizdə qala, yeyib-içə bilərəm?" demisən. Pulunla rəzil olmaq deyirlər buna el arasında. Dəhşətli bir xudpəsəndlik, müştəriyə laubali münasibət... Turizmin, xidmət sektorunun əlifbasından xəbərsiz olmaq deyirlər buna. Deyirlər, amma gürcülərin bundan xəbəri yoxdur.

Tamam, hesab edək ki, içində bir insaflısı çıxdı, rus dilini bildi, ingilis dilindən anladı. Restorandasınızsa, sifarişinizi qəbul elədilər. Əsl kino bundan sonra başlanır. Siz ən elementar bir sifariş vermisiniz hesab edək. Məsələn, acaruli, ya da xaçapuri... Adamlar bunu sizə 1 saatdan daha tez gətirmirlər. Masada ac olduqları üçün aqressivləşən uşaqlar, elə də özünüz onların umurunda da olmursunuz. Çay istəyərsən, 15 dəqiqə sonra stəkanı, ondan 15 dəqiqə sonra isə çayniki gətirərlər. Ən elementar sifarişin müştəriyə çatma vaxtı yarım saatdan tez olmaz. Hələ çağırdığın halda çağırışına məhəl qoymayan ofisiantlar ordusundan, sifarişini yanlış yerinə yetirib, sonra da at kimi üzünə dirənənlərdən danışmıram.

Siz bizim ictimai sektorun, onun gənclərinin Tiflis sevdasına baxmayın. Bu, azadlıq sevdasıdır daha çox və olduqca da haqlıdılar. O ölkə sözün böyük mənasında biz azərbaycanlıların azadlıq adasıdır. Gedirik, nəfəslik misalı, bir az nəfəs alırıq, gözümüz-könlümüz açılır və sonra yenidən... bu quyuya. Amma şapalaqla da üz qızartmayaq. Tiflisin, Gürcüstanın yeri özəl, gözəl olsa da, xidmət sektoru bərbad durumdadır. Hətta Azərbaycanın ən aşağı səviyyəli restoranlarında belə xidmət, qulluq bundan yaxşıdır.

Bu mənzərəni çox vaxt gürcülərin tənbəl, kefqom millət olması ilə izah edənlər olur. Haqlıdılar əslində. Əslim Borçalıdan olduğu üçün uzun illər boyu, ora dəfələrlə yolum düşüb. Və gördüklərim bir dəfənin yox, dəfələrlə müşahidənin nəticəsidir. Xidmət sektorunda çalışan sıravi gürcünün üzündə çox vaxt "sən nə istəyirsən ee? Bax, indi mən dadlı çaxırımdan içib çayın kənarında uzanmalıydım, amma sənə qulluq edirəm" ifadəsi olur. Sıxılırsan, kompleksə girirsən, çox vaxt isə qəzəblənirsən. Hiss olunur ki, məcburi çalışır, çalışdığı üçün məmnun deyil və bu hissi sən müştəriyə bacardığı qədər ötürür.

Biz yazıqlar isə yağışdan çıxıb, yağmura düşənlər kimi bilmirik hansı tərəfə üz tutaq. Özümüzünkülər restoranlarda, istirahət mərkəzlərində az qala "uçastkovi"nın xərcini də bizdən çıxır deyə, qaçırıq Gürcüstana, orda da belə...

Kaş ki, turizmin "t"sini yaxın qonşuluqdakı Türkiyədən öyrənə biləydik. Bizimkilər bir tərəfdən, gürcülər o biri tərəfdən. Əsl cənnəti onda yaradardılar...

YENİ MÜSAVAT
N 185 (6213) 24 avqust 2015

# Bakının 5 rayonunun su təhlükəsizliyi təhlükədə

## Oqtay Əliyev: "Hakimin səhv qərarı Bakının yarısını iflic edə bilər..."

**Bakı Apelyasiya Məhkəməsinin İnzibati İqtisad kollegiyasında hakim Rövşanə Vəliyevanın sədrliyi ilə Bakının Şərq hissəsinin - Nizami, Xətai, Səbayel, Suraxanı və Sabunçu rayonlarının içməli su təhlükəsizliyinə birbaşa aidiyyəti olan araşdırma gedir.**



Hazırkı araşdırmaya səbəb olan iddia ilə "Azərsu" ASC çıxış edib.

ASC rəsmiləri Nizami rayonu, Çobanzadə küçəsi 45 ünvanında yerləşən və xüsusi dövlət mülkiyyəti olan torpaq sahəsinin üzərində aparılan tikintinin ləğv olunmasını istəyiblər. İşə 3-cü şəxs qismində "Buxar" Kollektiv Müəssisəsi və həmin xüsusi dövlət mülkiyyətində olan torpaq üzərində ev tikmiş Tamara Həmidova da qoşulublar.

"Buxar" Kollektiv Müəssisəsinin rəhbəri Oqtay Əliyev deyir ki, T.Həmidova 2003-cü ildən başlayaraq mübahisə obyekti olan ərazidə ev tikib, əsaslı tikinti aparıb. T.Həmodovaya tikdiyi evin altından Bakının yarısını su ilə təhciz edən yüksək təzyiq altında olan 1400 mm-lik və 1200 mm-lik magistral su kəmərlərin keçdiyi bildirilib. Lakin o, qanunsuz fəaliyyətindən geri çəkilməyib.

O.Əliyev deyir ki, T.Həmidova uzun illər Bakı Şəhər İcra Hakimiyyətində yüksək vəzifədə çalışıb. Vəzifəsindən istifadə edərək Çobanzadə küçəsi 45 ünvanına qanunsuz sənəd alıb: "İşin təhlükəli tərəfi budur ki, həmin sahənin faktiki və hüquqi sahibi Cəlal Həmidovdur. Bu şəxs Tamara Həmidovanın qardaşıdır. O, 1-ci qrup ruhi xəstədir. Əksər vaxtları 1 saylı Psixiatrik Xəstəxanada müalicə alır. Həmin şəxs magistral kəmərlərin üzərindəki evindən kəmərlərə müdaxilə edə, ora istənilən təhlükəli maddə tökə bilər. Bunun məsuliyyətini kim daşıyacaq? Adamın özü ruhi xəstədir və əməlinə görə məsuliyyət daşımır. Əgər faciə olacaqsa, bunun məsuliyyəti kimin üzərində qalacaq? Üstəlik bu adam orada ev tikəndən sonra 2-3 dəfə magistral kəmərlərə müdaxilə olunub, ərazini su basıb. Nəhayət orada tikilən ev "Azərsu" ASC-nin iddiası ilə sökülüb. "Azərsu" haqlı olaraq bu iddianı qaldırıb. Təəssüf ki, bəzi qurumlar və məhkəmələrin hakimləri nəyə görə gələcəkdə baş verə biləcək təhlükəli olaylara yol açırlar".

O.Əliyev deyir ki, sözügedən magistral kəmərlərin üzərindəki əksər torpaq sahələrini müxtəlif şəxslərə şəxsən Tamara Həmidova vasitəsi ilə satılıb: "Bir neçə il əvvəl Çobanzadə küçəsində ət dükanı olan cərgədə belə bir hadisə oldu. Ət dükanının altından keçən magistral su kəməri partladı və bir neçə nəfər yaralandı. Bakının Şərq hissəsi günlərlə susuz qaldı. Çünki təmir briqadası həmin əraziyə girib təmir işi apara bilmirdi. O ərazini də camaata Tamara Həmidova satmışdı. Bu qadının adına şəhərin ən müxtəlif yerlərində onlarla torpaq sahəsi mövcuddur. Əgər araşdırma aparılsa, məlum olacaq ki, həmin torpaq sahələri də eyni üsullarla ələ keçirilib. Tamara Həmidovanın apardığı tikinti müəssisəmizin fəaliyyətini tam iflic edib. Ona bu barədə dəfələrlə demişik. Ona apardığı tikintinin faciəyə səbəb olacağını bizdən savayı Nizami Rayon İcra Hakimiyyəti, "Azərsu" ASC, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsindən bildiriblər. Tamara Həmidova bunun əvəzində bu qurumların rəsmilərini və məni şərləməkdən çəkinməyib".

O.Əliyev deyir ki, bu günə qədər Çobanzadə küçəsi-45 ünvanında aparılan tikintinin qanunsuz olması ilə bağlı 30-dan çox məhkəmə iddiası olub. Həmin iddiaların əksəriyyəti təmin olunub: "Məhkəmələr həmin iddiaları Ədliyyə Nazirliyinin ekspertlərinin rəyinə, "Azərsu" ASC-dən verilən texniki rəylərə və Çobanzadə küçəsi-45 ünvanına yerli baxış keçirməklə ərazidən 2 magistral su boru kəmərinin keçməsini təsdiqləməklə təmin edib. Buna baxmayaraq Tamara Həmidova həmin məhkəmələrin qətnamələrini icra etmək əvəzinə ərazidə 2 yeni tikilinin aparılmasına ciddi şəkildə hazırlıq işləri görür. Məni hədələyərək deyir ki, bu dəfə tikintini kəmərin və "Buxar" Kollektiv Müəssisəsinin ərazisində aparacaq. Bu adam illərdir ki, məhkəmələrin qətnamələrini icra etmir. Məndə belə rəy formalaşıb ki, o, bu qanunsuzluğu da edəcək".

O.Əliyev bildirir ki, hakim Rövşanə Vəliyeva yüzlərlə mötəbər sübuta əhəmiyyət verməyərək açıq-aşkar T.Həmidovanın qanunsuz əməlinə şərik çıxır: "Təsəvvür edin ki, hakimə məhkəmədə ərazidən Bakının yarısını su ilə təmin edən, yüksək təzyiq altında olan 2 magistral su kəmərinin keçməsi haqda ekspertizaların rəyini təqdim edirik. Bir kənara tullayır. Bunun əvəzində hakim əraziyə qanunsuz olaraq yerli baxış keçirir. Hakim özü şəxsən traktorçuya göstəriş verib yer qazdırır. Ekspertin səlahiyyətlərini mənimsəyərək ərazidə qazıntı işi aparır, boruların yerini müəyyən edir. Sonra da sual edir ki, bu boruların magistral su kəməri olması necə təsdiqlənir? Və boruların tikiləcək evə aidiyyatının olmadığı haqda fərziyə irəli sürür. Hakimə bir çox qurumların ərazidən 2 magistral su kəmərinin keçməsi haqda sənədlər təqdim edirik. Baxmır. Bu artıq hakimin mövqeyini açıq-aşkar göstərir. Hakimin səhv qərarı Bakının yarısını iflic edə bilər. Rövşanə Vəliyeva müvafiq dövlət qurumlarının rəyini şübhə altına alır və dəfələrlə məhkum edilmiş, hazırda barəsində cinayət təqibi olan şəxsin fikirlərini əsas götürür. Maraqlıdır niyə?"

O.Əliyevin vəkili Ceyhun Yusifov deyir ki, həmin torpaq sahələrinin ayrılması torpaq qanunvericiliyinə ziddir: "Nazirlər Kabinetinin 21 avqust 2003-ci il tarixli qərarında açıq şəkildə yazılıb. Kanallar, kollektorlar, magistral sunəqledici kəmərlər və tunellər su buraxma qabiliyyətindən asılı olaraq 10 metrdən 100 metrə qədər mühafizə zolağı təşkil edir. Çobanzadə 45 ünvanının tən ortasından keçən 2 magistral su kəmərinin mühafizə zolağı mövcud qərara əsasən 10-25 metr təşkil edir. Tamara Həmidovanın torpaq sahəsinin eni bir tərəfdə 3, digər tərəfdə 5 metrdir. Yəni istənilən tikinti işi kəmərin üzərində və bilavasitə mühafizə zolağında həyata keçirilməlidir. Bununla yanaşı həmin sahənin ayrılması cinayət məsuliyyəti də yaradır. Belə ki, Cinayət Məcəlləsinin 222-ci - mühafizə zolağında qanunsuz tikilinin aparılması, 188-ci - qanunsuz tikinti aparma və 314-2-ci maddəsinə əsasən cinayət məsuliyyəti yaradır. Ona görə də hakim Rövşanə Vəliyeva işə baxarkən bu normalara diqqət yetirsə, daha obyektiv nəticəyə gələ bilər".

Qeyd edək ki, iş üzrə növbəti məhkəmə prosesi avqustun 26-na təyin olunub.

Mövzuya qayıdacağıq.

❑ **E.MƏMMƏDƏLİYEV**

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 185 (6213) 24 avqust 2015

**Son bir neçə gündə havanın temperaturunun qəfil düşməsi insanlarımızı da payız əhvalına köklədib. Yayın bitməsinə az qalıb, yağışlar, sərin küləklər artıb və... Tibbə çoxdan məlum olan, insanların həyatında isə özünü göstərməyə başlayan payız depressiyası aktivləşib.**



# Yay tətilindən sonrakı depressiyadan necə qorunmalı...

## Psixoloqların qapısını mövsümi dəyişikliklərdən əziyyət çəkənlər necə yağır edib?

### Yaradıcı insanlar üçün payız məhsuldardır, amma...

Statistikaya görə, depressiya planetin hər beş sakinindən birində özünü büruzə verir. Bu, heç də təəccüblü deyil: havaların getdikcə soyuması, tutqun və yağışlı olması, günəşli günlərin qısalması və payızın digər atributları istənilən insanın əhval-ruhiyyəsini korlaya bilər. Amma belə xoşagəlməz təsirə təslim olmağınıza dəyməz, axı bu, təbii prosesdir.

Payız olduqca rəngarəng fəsildir. Təbiət bu fəsildə daha səxavətlidir. Payızda bütün fəsillərə nisbətən bolluq, bərəkət özünü göstərir. Yaradıcı insanlar payızı daha çox sevir, daha məhsuldar olurlar. Lakin bütün bunlarla yanaşı, payızda bir hüzn, kədər də var. Romantikanın ən bol olduğu fəsildir payız. Payız təbiətin xəzan çağıdır. İnsan ömrünün də qürub çağını payıza bənzədirlər.

Baharda canlanan, oyanan təbiət bu duyğuları insana da yaşadır. Günəşli, uzun günlər insanı da canlandırır. Bunların əksinə payızda günlərin qısalması, günəşin daha az görünməsi, çiskinli, küləkli günlər insanı kədərləndirir. Təbiətin kədəri insanın da ruhuna hopur.

### Günəş az göründükcə, orqanizmdə xoşbəxtlik hormonu azalır

“Payız depressiyası” məhz bu zaman özünü göstərir. Günəşin daha az görünməsi ilə orqanizmdə melotonin hormonu artır, “xoşbəxtlik hormonu” sayılan serotonin isə azalır. Heyvanlarda da yuxunun və oyaq qalma vaxtının melotonin hormonu ilə tənzimləndiyi məlumdur. Bu hormon yalnız qaranlıqda ifraz olunur, işıqda isə azalır. Yayda gecələr qısa olduğu üçün melotonin ifrazı azaldığı halda, uzun payız və qış gecələrində daha çox ifraz olunur.

Depressiyaya tez-tez düşən insanlar, payız depressiyasına da asanlıqla yaxalanırlar. Qadınlar depressiyaya meylli olduqlarından, payız depressiyasına da ən çox qadınlarda rast gəlinir. Dünyada hər beş nəfərdən biri bu depressiya növündən əziyyət çəkir.

Əsas əlamətlər:

Sabah yuxudan oyanmaqda çətinlik çəkmə;

Həddən artıq yatma istəyi;

Ümumi yorğunluq;

İştahsızlıq;

Hər şeyə marağın itməsi.

Depressiya ilə bağlı yaranan yorğunluq, fikrini bir yerə cəm edə bilməmə, tez özündən çıxma, enerji azalması və s. əlamətlər mütəxəssis tərəfindən qiymətləndirilməlidir. Ola bilər ki, bu heç depressiv əlamət deyil, hansısa bir xəstəliyin əlamətidir. Yaxud da başqa bir psixoloji problemin başlanğıcı ola bilər.

Bu zaman insan bədəninə lazım olan enerjini toplamaq üçün rejimlə qidalanmalı, gün ərzində yarım və ya bir saat gəzintidə olmalıdır. İdmanla məşğul olmaq olduqca faydalıdır. Buludlu havada gəzintiyə marağın olmaması, istəksizliyin olmasına baxmayaraq, açıq hava, oksigen insanın əhvalını xeyli yaxşılaşdırır.

Hər günə gözəl bir səhər yeməyi ilə başlamaq, iş yerində yorulduqca fasilələr vermək lazımdır.

Qida rasionu önəmlidir. Ağ şəkərdən bacardıqca az istifadə etmək lazımdır. Çünki ağ şəkər qan şəkərini sürətlə qaldırır və eyni zamanda sürətlə aşağı salır. Bu da yorğunluq hissini artırır. Əvəzinə isə bol şəkildə meyvə, tərəvəz istifadə etmək lazımdır. Şirniyyatdan, tortdan, şokoladdan az istifadə edin. Bu qidalar vitaminlə zəngin deyil.

Nəzərə alın ki, payız depressiyası bir xəstəlik deyil, yalnız bir psixoloji qərarsızlıq halıdır və daha çox boş-bekar insanların qapısını döyə bilər. Çalışın özünüzə faydalı məşğuliyyətlər tapasınız. Qadınlar mətbəxdə daha fəal ola bilər, toxuma, tikiş bacarıqlarından faydalana bilərlər. Dil öyrənmək, kitab oxumaq, rəsm çəkməklə məşğul olmaq lazımdır. Ən əsası dostlarla ünsiyyətdə olun, bərabər istirahət edin. İdmanla məşğul olsanız stressinizi atmış olarsınız. Stress qanda adrenalinin parçalanmasını sürətləndirir, depressiv əlamətləri artırır. İdmanla məşğul olan zaman isə beynin qanla təchizatı güclənir, mənimsəmə qabiliyyəti artır. Səhərlər qaçmaq əhval-ruhiyyəni yaxşılaşdırır, endorfin hormonunun artmasına səbəb olur. Endorfinin artması insanın özünü sevincli, xoşbəxt hiss etməsinə səbəb olur.

Əlamətlər kəskin şəkildə özünü göstərərsə, mütəxəssisə müraciət etmək, dərman və ya psixoterapiya müalicəsindən yararlanmaq olar.

### 2-3 həftə istəksizlik, daha çox yatmaq istəyi və pessimizm...

Ümumən isə mövsümün dəyişməsi, günəş şüalarının azalması narahatlıq, yuxusuzluq, iştahanın pozulmasi kimi hallara gətirib çıxarır. Səbəb isə melotonin hormonudur. Günün uzunluğu azaldıqca melotonin ifrazı artır, çünki bu hormon qaranlıqda daha çox ifraz olunur. Melotonin ifrazının artması hərəkətlərimizi azaldır, yuxulu, halsız vəziyyət yaradır. Bir növ təbii sakitləşdirici rolunu oynayır. Beləliklə, payızda gün işığının azalması, gecələrin uzun, gündüzlərin qısa olması melotonin ifrazının artmasına və təbii olaraq da bizdə həm fizioloji, həm də psixoloji dəyişikliklərə gətirib çıxarır. Psixologiyada bu, mövsümi depressiya adlanır.

Mövsümi depressiyanın əsas əlamətləri 2-3 həftə boyunca istəksizlik, diqqəti toplaya bilməmək, səhər yuxudan yorğun oyanma, pessimizmə qapılmaq, heç nədən zövq ala bilməmək, iştah pozğunluqları, həddindən artıq durğunluq və gərginlikdir.

Bu kimi hallara təkcə payızda deyil, eyni zamanda yaz aylarında rast gəlinir.

Mövsümi depressiyanın spesifik halları daha çox yatmaq və heç bir iş görməmək istəyi, səhər yuxudan duranda bədəndə ümumi yorğunluq, əzələlərdə, oynaqlarda ağrılar, bəzən baş ağrıları, əsəbi və küsəyən olmaqdır.

### Hansı fəsildə doğulmusansa, bunun keçirdiyin depressiyaya da təsiri var

Bu növ depressiyalar daha çox uşaqlar, yeniyetmələr və evdar xanımlarda rast gəlinir. Tədqiqatçılar mövsümi depressiyaların doğum tarixi ilə bağlı ola biləcəyini də söyləyirlər. Məsələn, “The Daily Mail” bu barədə yazır: “Yayda dünyaya gələn yeniyetmələr qışda emosional fonun azalmasından əziyyət çəkirlər. Halbuki, qışda və payızda doğulan uşaqlarda buna çox az hallarda rast gəlinir. Yəni körpənin həyatının ilk günlərində təbii işığı görüb-görməməsi çox əhəmiyyətlidir, çünki günəş işığı sinir sistemini ”proqramlaşdırır". Bəzən insanlar payız fəslində işə, dərsə başlayanda öz potensiallarını istədikləri kimi ortaya qoya bilməyəndə ümidsizlik, istəksizlik yaranır ki, bu da mövsumi depressiyaya təkan verə bilər."

### Mövsümi depressiyadan qurtulmaq üçün... yeməyə diqqət

İstər payızda, istərsə də yaz aylarında baş verən mövsümi dəyişikliklər psixoloji narahatlıq olub, uzun müddət davam edər və tədbir görülməzsə xroniki hala keçə bilər ki, bu da artıq psixoloji pozğunluq sayılır.

Bəs mövsümi depressiyaların qarşısını necə alaq və hansı tədbirləri görək?

Mövsümi dəyişikliklərdən təsirlənməmək üçün ilk öncə qidalanma vərdişlərimizə dəyişiklik etməliyik.

1.Gündəlik qidalanmanı 4-5 paya bölüb, az-az, tez-tez yemək lazımdır.

2.Tərkibində C və B qrup vitaminləri, K, Ca mikroelementləri olan meyvə və tərəvəzlərdən daha çox istifadə etmək lazımdır.

3.Xüsusilə axşamlar tərəvəzli yeməklər qəbul etmək.

4.Gün ərzində 2-2,5 litr su içmək, spirtli içkilərdən uzaq durmaq lazımdır.

5.Yuxu rejiminə diqqət etmək . Gün ərzində 7-8 saat normal yuxu sayılır.

6.İdmanla məşğul olmaq, yox əgər buna vaxtınız çatmırsa, evdə rəqs və ya gimnastika ilə məşğul olmaq olar.

7.Düşüncələrinizə nəzarət etmək: pis fikirlərdən, pessimistlikdən uzaq olub pozitiv düşünmək.

8.Gələcək haqqında düşünmək, böyük planlar qurmaqdan qorxmamaq, çünki bu yanaşma bizi qısa müddətli uğursuzluqlarımıza qarşı daha güclü edəcək...

9.Öz-özümüzü motivasiya etməyi bacarmalıyıq. Məsələn: iş stolu və ya otağınıza məqsədlərinizi xatırladacaq simvollar, yazılar, şəkillər, yaxud əşya qoyun, bu öz növbəsində həvəssiz yanaşdığınız işinizi sevməyə və hədəflərinizə çatmağa kömək edəcək.

10.Vaxt olduqca açıq havada, oksigenlə zəngin olan yerlərdə daha çox gəzinin.

11.Xanımların köməyinə gələcək daha bir üsul onların çox sevdiyi alış-verişdir.

❑ **Hazırladı: SEVİNC**

# Azərbaycanın xalq artistləri arasında yumruq davası



**Akademik Milli Dram Teatrı ilə bağlı qalmaqallar pik həddə çatıb. Lent.az aznews.az-a istinadən xəbər verir ki, bu gün teatrda xalq artistləri yumruq davasına çıxıb.**

Belə ki, mətbuatda teatr direktoru İsrafil İsrafilovun barəsində verilən açıqlamalara xalq artisti Ramiz Novruz reaksiya verib. Bu barədə söhbət zamanı Ramiz Novruzun teatr direktorunu müdafiə etməsi Xalq artisti Ramiz Məlikə xoş gəlməyib. Nəticədə mübahisə düşüb. Bu zaman isə əsəblərinə hakim ola bilməyən Ramiz Novruz Ramiz Məliki yumruqlayıb. Nəticədə ikincinin gözünün altı qaralıb və paltarı cırılıb.

Bir müddət əvvəl ağır ürək əməliyyatı keçirən Ramiz Məlik aktyorların köməyi ilə Ramiz Novruzun əlindən güclə alınıb. Xəsarət alan Xalq artisti polisə (102) müraciət edib. Bir qədər sonra xalq artistləri Yasamal Polis İdarəsinin 27-ci Polis Bölməsinə aparılıblar.

Məsələni dəqiqləşdirmək üçün aznews.az-ın əməkdaşı hər iki aktyorla əlaqə saxlayıb. Məsələ ilə bağlı sualı eşitdikdən sonra Ramiz Məlik telefonu qapadıb. Xalq artisti Ramiz Novruz isə faktı təsdiqləyib. O, belə bir hadisənin olduğunu və buna təssüfləndiyini bildirib. Danışa bilmədiyini deyən Xalq artisti olduğu yerdən polis bölməsinə gedəcəyini vurğulayıb.

Qeyd edək ki, yumruqlaşmaq həddinə gəlib çatmasa da, iki aktyor arasında gərginlik bir neçə ay əvvəl də olmuşdu.

YENİ MÜSAVAT

Son səhifə

N 185 (6213) 24 avqust 2015



# Yalançılığı müalicə edən klinika

İnsanlar üçün gündə orta hesabla 2 yalan danışmaq normal qəbul edilir. Amma bu rəqəmi 200-ə qədər artıranlar üçün Berlində klinika açılıb. İtaliyanın "Libero" qəzetinin xəbərinə görə, "Buratino" sindromundan qurtulmaq üçün "Sofie Charlotte" Xəstəxanasında açılan "Yalançılıqla mübarizə" bölümünə könüllü olaraq gələn və yalan söyləməkdən qurtulmaq istəyənlərin sayında gözlə görülən bir artım müşahidə olunur. Amma müalicə müddəti uzandığı üçün hazırda klinika lazımi sayda xəstə qəbul edə bilmir. Bu vərdişindən qurtulmaq üçün insanlar bəzən aylar, hətta bir ilə qədər davam edən müalicələrdən keçir. Akademik adı "Psödoloji" adlanan bu xəstəliyin qurbanları yalan söyləməklə özünə zövq verəcək heyranlıqlar, əyləncələr, xoşbəxtliklər yaradacaq bir dünyanın arxasınca düşür, sonra da işi şişirdərək başqaları ilə paylaşmağa qərar verirlər. Maraqlıdır ki, klinikada gündə 100 yalan deyən insanlar xəstə kimi qəbul edilmir. Amma gündə 200 və ondan daha artıq yalan deyənlər mütləq müalicədən keçməlidir.

# Xəstəxanada kloun məcburi olacaq

Argentinadakı xəstəxanalarda artıq klounları işə götürmək məcburi olacaq. Buenos Aires əyalətində çıxarılan qaydaya görə, hər bir xəstəxana pediatriya bölümündə bir kloun çalışdıracaq. Pediatr Andres Koganın sözlərinə görə, klounlar sadəcə xəstə uşaqları və ailələrini əyləndirməklə kifayətlənməyəcək, özünə qapanmış uşaqların müalicəsinə də kömək edəcəklər. Planlamaya görə, klounlar həftədə bir dəfə xəstəxanaya gələcəklər və uşaqlarla oynayacaqlar. Beləliklə, xəstəxanada müalicə edilən uşaqlar klounun gələcəyi günü gözləyərək sevinəcəklər. Yeni qaydanı yazan Dario Galinın sözlərinə görə, gülüş ən yaxşı dərmandır. Onun sözlərinə görə Robin Villiamsın baş rolunu oynadığı "Patch Adams" adlı filmdə xəstələrini güldürməyə çalışan Həkim Hunterin hekayəsi onun ilham qaynağı olub.



# Pandanın doğuşunu kamera ilə izlədilər



ABŞ-ın paytaxtı Vaşinqton şəhərində böyük panda iki bala dünyaya gətirib. ANS PRESS-in məlumatına görə, ayı balaları süni mayalanma nəticəsində dünyaya gətirilib. Zoopark qoruqçuları Mey Syan adlı heyvanın "hamilə" olduğunu yalnız bir həftə əvvəl biliblər. Onun qəfəsində kamera quraşdırılıb və insanlar zooparkın internet saytına girərək doğuşu canlı izləyə biliblər. Mey Syan daha əvvəl də 4 bala dünyaya gətirib. Amma onlardan yalnız ikisi sağ qala bilib. Vaşinqton zooparkı ABŞ-ın böyük panda saxılanılan dörd zooparkından biridir. Bu heyvanxanalardakı pandaların hamısı Çindən gətirilib. Ümumiyyətlə, böyük panda dünyanın məhv olmaq təhlükəsi ilə üz-üzə qalan nadir heyvanlarındandır və onlar çox nadir hallarda çoxalırlar. Hal-hazırda Çinin vəhşi təbiətində cəmi 1800 böyük panda var. Onların əksəriyyəti Çinin mərkəzi Siçuan əyalətində yüksək dağlıq yerlərdəki meşələrdə yaşayır.

# Dünyanın ən yaşlı kişisi



Yaponiyanın Nagoya şəhərində yaşayan Yasutarop Koide "dünyanın ən yaşlı kişisi" olaraq Ginnesin Rekordlar kitabına düşüb. 13 mart 1903-cü ildə doğulan, hazırda təqaüdə çıxmış dərzi Koideyə yaşadığı qocalar evinin müdiri mükafat da verib. Koidenin uşaqlarının, nəvə və nəticələrinin iştirak etdiyi tədbirdə xoşbəxt yaşamağın sirrinin hər şeyin ən yaxşısını istəməmək olduğunu deyib. Siqaret və spirtli içkidən uzaq durmağı tövsiyə edən Koide eynəkdən istifadə edir.



# Dünyanın ən köhnə "mesajı"

İngilis alim George Parker Bidder tərəfindən 108 il əvvəl külək, dalğa və dəniz axıntılarına dair araşdırma üçün dənizə atdığı bir şüşə aprel ayında Almaniyanın Amrum adasında tapılıb. Mesajın şüşədə göndərilən ən köhnə "mesaj" olduğu təxmin edilir. Təqaüdçü bir qadının tapdığı şüşənin içərisində tarixi bəlli olmayan bir kart olduğu da deyilir. Kartın üzərində ingiliscə, almanca və hollandca yazılan notda şüşəni tapan şəxsin oradakı anketi doldurması istənilir.




**QOÇ** - Yeni təkliflər gözlənilsə də, bütün hallarda tələsik razılıq verməyin. Etibar etdiyiniz şəxslərlə məsləhətləşin ki, bunun səmərəsini görəsiniz. Axşama yaxın bir neçə sürprizə hazır olun.

**BUĞA** - Ulduzlar bir daha yalan vəd verməməyi tövsiyə edir. Əgər etibarınızı qoruya bilsəniz, təxminən saat 14-dən sonra ovqatınıza müsbət təsir edəcək hadisələr baş verəcək. Bu gün səfərə çıxmayın.

**ƏKİZLƏR** - Bütün astroloji göstəricilər bu gün ixtiyarın öz əlinizdə olacağını bəyan edir. Yalnız qarşınıza çıxan hər bir situasiyada obyektivliyinizi təmin etməlisiniz. Risk etməyə lüzum yoxdur.

**XƏRÇƏNG** - Günün ilk yarısı maliyyə əməliyyatları aparmaq üçün cox uğurludur. Çalışın ki, bu prosesdə təcrübəli insanlarla bir arada olasınız. Nahardan sonra isə qayğıya ehtiyac duyan doğmalarınıza baş çəkəsiniz.

**ŞİR** - Yüksək çinli adamlarla perspektivli danışıqlar aparmaq üçün yaxşı gündür. Xüsusən də saat 14-18 arası bu istiqamətdə uğurlarınız gözlənilir. Hər hansı tərəddüdə ehtiyac yoxdur.

**QIZ** - Nə qədər ki öz bürcünüz hakimdir, qarşınıza çıxan hər bir şansdan bəhrələnin. Xüsusən də cari problemlərinizin sürətli həllinə can atın. Axşam saatlarını sevdiyiniz insanlara həsr edin.

**TƏRƏZİ** - Səhər saatları bir qədər gərgin başlasa da, özünüzü təmkinli aparmaqla vəziyyətdən qurtula bilərsiniz. Günün sonrakı saatlarında isə uğurlarınız bol olacaq. Uzaq yola çıxmayın.

**ƏQRƏB** - Fəaliyyət göstərdiyiniz sahələrdə mübahisəli situasiyalarla rastlaşma ehtimalınız var. Həmkarlarınız və rəhbərliklə mülayim davranın. Nahardan sonra şəxsi büdcənizdə artım gözlənilir.

**OXATAN** - Ümumi süstlüyünüz kifayət qədər səngiyəcək. Bunu həm hadisələrin gedişatında, həm də rastlaşdığınız insanlarla münasibətlərdə görəcəksiniz. Planınızda varsa, uzaq səfərlərə çıxa bilərsiniz.

**OĞLAQ** - Yeniliklər yolunuzu gözləyir. Həm münasibətlər istiqamətində, həm də fəaliyyət müstəvisində müsbət mənzərə yaranacaq. Hətta nahardan sonra maddi zəmində uğurlarınız da mümkündür.

**SUTÖKƏN** - Maliyyə məsələləri ilə bağlı problemlərinizi həll etməyə çalışın. Bütün gücünüzü səfərbər etməklə istəyinizə yetişə bilərsiniz. Bu gün qida rasionunuzu da diqqətdə saxlayın - zəhərlənmə ehtimalınız var.

**BALIQLAR** - Bütün gücünüzü səfərbər edib yarımçıq işlərinizi yekunlaşdırın. Bu istiqamətdə sizə köməyi dəyəcək insanlara müraciət etməkdən də çəkinməyin. Deyilənləri edin ki, xoş günlərə start verilsin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Astronavt paltarı üçün 720 min dollar



Amerika ilə SSRİ arasındakı kosmik yarışda Aya ilk ayaq basan insan olaraq tarixə düşən amerikalı astronavt Neil Armstrongun Aya gedərkən geydiyi kostyumun bərpası üçün yardım kampaniyası başladılıb. Armstrogun 1969-cu ildə geydiyi astronavt paltarı deformasiya olduğu üçün onu yeniləmək lazım olub. Paltarın yenilənməsi üçün başladılan yardım kampaniyası zaman 500 min dollar toplanılacağını gözləyən Smithsonian Muzeyinin müdiri 720 min dollar yığıldığını öyrəndiyi zaman təəccüblənib. Bu miqdarı gözləmədiklərini etiraf edən muzey rəhbərliyi kampaniyaya dəstək verən 9 min 447 nəfərə təşəkkürünü bildirib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.300